# BEŞİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XI SESSİYASI İCLASININ

# PROTOKOLU № 82

*Milli Məclisin iclas salonu.*
*27 noyabr 2018-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***O.Əsədov*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 107 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.02 dəq.) |
| İştirak edir | 105 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Mikayıl Cabbarov**, Azərbaycan Respublikasının vergilər naziri.

**Sahil Babayev**, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.

*** * ***

**Elman Rüstəmov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədri.

**Tahir Budaqov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri.

* * *

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Adil Məhərrəmov**, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini.

* * *

**Şahin Sadıqov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadiyyat və maliyyə-kredit siyasəti şöbəsinin müdiri.

* * *

**Şirzad Abdullayev**, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu haqqında (ikinci səsvermə).
2. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).
3. Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).
4. İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barə-

də (ikinci oxunuş).

5. Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

6. Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

7. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

8. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

9. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

10. "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

11. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

12. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

13. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

14. Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Res-

publikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

15. “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

16. “Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

17. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

18. Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

19. İşsizlikdən sığorta fondunun 2019-cu il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

20. Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

21. Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).

22. Azərbaycan Respublikası Milli Məclisin 2019-cu il üçün xərclər smetası haqqında.

23. Azərbaycan Respublikası Hesablama Palatasının 2019-cu il üçün xərclər smetası haqqında.

24. “Azərbaycan Respublikası Hökuməti ilə Monqolustan Hökuməti arasında diplomatik, xidməti və rəsmi pasportlara malik olan şəxslərin viza tələbindən azad edilməsi

haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

25. "Azərbaycan Respublikası Hökuməti ilə Çili Respublikası Hökuməti arasında diplomatik və xidməti/rəsmi pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

26. Tranzit və Nəqliyyat üzrə Əməkdaşlıq Sazişinin (Lapis Lazuli Marşrutu Sazişi) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

27. "Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üçün Beynəlxalq Beyin Mərkəzinin yaradılması üzrə" Çoxtərəfli Sazişə qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

28. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

29. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

30. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

31. "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

32. "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbay-

can Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

33. “Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).

34. “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

35. “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

36. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

37. “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş “Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı”nda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

38. “Dərman vasitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

39. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qa-

nununun layihəsi barədə.

40. “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

41. “Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919–2019)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

42. Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

43. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

44. “Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

45. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

46. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.

47. “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

48. “Dövlət borcu haqqında” Azərbaycan Respublikasının

Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

49. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

50. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

51. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).

52. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

53. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

54. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

55. Azərbaycan Respublikasının Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

56. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (birinci oxunuş).

57. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

58. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respubli-

kasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**1. "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu haqqında (ikinci səsvermə).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |

Nəticə: Qəbul edildi

**2. Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Sahibə Qafarova, Mirkazım Kazımov, Cavanşir Paşazadə, Novruzəli Aslanov, Mirzəcan Xəlilov, Samir Şərifov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 2 |
| Bitərəf | 2 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**3. Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli, Sahil Babayev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**4. İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli, Sahil Babayev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |
| **Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 3 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Mikayıl Cabbarov, Fazil Mustafa, Vahid Əhmədov, Əli Məsimli, Elmira Axundova, Ziyafət Əsgərov, Çingiz

Qənizadə, Zahid Oruc, Musa Quliyev, Əli Hüseynli, Hikmət Məmmədov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.03 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**9. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə, Əli Məsimli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 16.11 dəq.)

| | |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**10. "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.15 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**11. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.18 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**12. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.19 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**13. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Hadi Rəcəbli, Vahid Əhmədov, Zahid Oruc, Sahil Babayev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.36 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**14. Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azər-**

**baycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.47 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**15. "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.47 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**16. "Azərbaycan Respublikası Milli Məclisi deputa-**

**tının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.48 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**24. "Azərbaycan Respublikası Hökuməti ilə Monqolustan Hökuməti arasında diplomatik, xidməti və rəsmi pasportlara malik olan şəxslərin viza tələbindən azad edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 16.50 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**25. "Azərbaycan Respublikası Hökuməti ilə Çili Respublikası Hökuməti arasında diplomatik və xidməti/rəsmi pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.52 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**26. Tranzit və Nəqliyyat üzrə Əməkdaşlıq Sazişinin (Lapis Lazuli Marşrutu Sazişi) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.53 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**27. "Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üçün Beynəlxalq Beyin Mərkəzinin yaradılması üzrə" Çoxtərəfli Sazişə qoşulmaq haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 16.55 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**28. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 16.57 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**29. Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 16.58 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**30. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Ziyad Səmədzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 17.01 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**31. “Baytarlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Eldar İbrahimov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.03 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**32. “Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 17.04 dəq.) |
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**33. "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 17.05 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*27 noyabr 2018-ci il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri!

Hörmətli millət vəkilləri, xahiş edirəm, qeydiyyatdan keçək.

| **Qeydiyyat** | (saat 12.02 dəq.) |
|---|---|
| İştirak edir | 105 |
| Yetərsay | 83 |

Çox sağ olun. Yetərsay var, iclasımıza başlaya bilərik.

Hörmətli millət vəkilləri, noyabr ayının 27-si və 30-na olan iclaslarımızın gündəliyi sizə paylanılıb. 58 məsələ var. Xahiş edirəm, gündəliyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Gündəlik təsdiq edildi.

Gündəliyin birinci məsələsi "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Konstitusiya qanunudur, ikinci səsvermədir, xahiş edirəm, səsvermədə diqqətli olaq. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, cənab Sədr. Sizin dediyiniz kimi, bu, ikinci səsvermədir. Məsələnin mahiyyətini sadəcə xatırlada bilərəm ki, insan hüquqları üzrə müvəkkilin əmək haqqı ilə bağlı rəqəm dəyişikliyidir. 2025 rəqəmi 2230 rəqəmi ilə əvəz edilsin. Həmkarlarımdan səs verməyi xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 106 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 106 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi. Sağ olun.

Bildiyiniz kimi, bu gün Azərbaycan Respublikasının Dövlət büdcəsi haqqında qanun layihəsinin ikinci oxunuşudur. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, 2019-cu il dövlət büdcəsi və büdcə zərfinə daxil olan sənədlər Milli Məclisin bütün komitələrində hökumətin iqtisadi strukturlarının və büdcə gəlirlərini formalaşdıran, xərclərindən istifadə edən müvafiq nazirlik və dövlət komitələrinin, dövlət şirkətlərinin və səhmdar cəmiyyətlərinin rəhbərlərinin iştirakı ilə ətraflı müzakirə olunmuşdu. Müzakirələrdə xüsusi olaraq vurğulanmışdır ki, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ilində ölkəmizin iqtisadi, sosial, siyasi həyatında əhəmiyyətli kəmiyyət və keyfiyyət dəyişiklikləri baş vermiş, gələcək dinamik inkişaf üçün dövlətimizin iqtisadi əsasları daha da möhkəmləndirilmişdi. Dövlət başçısı İlham Əliyevin göstərişlərini əsas tutaraq hökumət 2019-cu il üçün dövlət büdcəsi layihəsini hazırlayarkən qarşıdakı orta dövrdə davamlı inkişaf tempini, inkişafı təmin etməyi, qeyri-neft sektorunda özünü göstərən müsbət meyillərin daha da güclənməsini, iqtisadi inkişaf ilə sosial inkişaf arasında əlaqələrin möhkəmləndirilməsini, əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq imkanlarından səmərəli istifadə edilməsini bilavasitə diqqət mərkəzində saxlamışdır.

Müzakirələrdə bildirildi ki, Milli Məclisə təqdim olunan dövlət büdcəsi barədə qanun layihəsi "Büdcə sistemi haqqında" Qanunun tələblərinə tam cavab verir. Dövlət büdcəsinin bütün əsas parametrləri kifayət qədər əsaslandırılmışdır və dövlətin konkret məqsəd və vəzifələrinin həyata keçirilməsini nəzərdə tutur. Müzakirələrdə müsbət hal kimi o da qeyd edildi ki, 2019-cu il dövlət büdcəsi layihəsi hazırlanarkən qlobal risklərdən qorunmaq, kölgə iqtisadiyyatının əsaslı şəkildə azaldılması, əmək münasi-

bətlərinin təkmilləşdirilməsi ilə bağlı nəzərdə tutulan tədbirlərə xüsusi yer verilmişdir. Qeyd etmək istəyirəm ki, bu məsələlərin ön plana çəkilməsi hamı tərəfindən müsbət addım kimi qiymətləndirilmişdir. Təbii ki, qarşıdakı dövrdə bu istiqamətdə görülən işlər daha yüksək, konkret nəticələr əldə etməyə imkan verəcək. Ancaq cəsarətlə demək olar ki, 2019-cu il gələcək baxımından müstəsna əhəmiyyət kəsb edir.

Bu gün müzakirə edəcəyimiz Vergi Məcəlləsində nəzərdə tutulan dəyişikliklər, xarici biznes mühitinin yaxşılaşdırılması, idxal-ixrac əməliyyatlarında subyektiv amillərin minimuma endirilməsi, Maliyyə, İqtisadiyyat, Əmək və əhalinin sosial müdafiəsi nazirliklərinin büdcə vəsaitlərindən, o cümlədən investisiya resurslarından səmərəli istifadə etmək sahəsində əlaqələrinin yaxşılaşdırılması istiqamətində səylər təqdirəlayiqdir. Eyni zamanda, onu da qeyd etməliyik ki, bu işlər daha da təkmilləşdirilməlidir. Millət vəkilləri haqlı olaraq iqtisadiyyatın, xüsusi ilə də real sektorun maliyyə resurslarına çıxışının asanlaşdırılması, devalvasiyanın təsirlərinin azaldılması istiqamətində görülən tədbirləri də müsbət qiymətləndirdilər.

Bütövlükdə komitələr 2019-cu ilin dövlət büdcəsinin əsas hədəflərinin ölkənin iqtisadi qüdrətinin artmasına, müdafiə qabiliyyətinin möhkəmlənməsinə, sosial sahələrin elm, təhsil, səhiyyə, mədəniyyətin inkişafına ildən-ilə artan dəstəyini müsbət qiymətləndirərək, eyni zamanda, bir sıra maraqlı təkliflərlə çıxış etdilər ki, bu barədə daha konkret olaraq hörmətli Samir müəllim, digər iqtisadi strukturların rəhbərləri məlumat verəcəklər.

Hörmətli Oqtay müəllim, hörmətli millət vəkilləri, büdcə müzakirələrinin mühüm nəticələrindən biri də odur ki, dövlətimiz inkişaf etdikcə onun iqtisadi siyasəti, bu

siyasətin tərkib hissəsi olan dövlət büdcəsinin hazırlanması, təqdim edilməsi, müzakirə prosesi də təkmilləşib, inkişafın daha sürətli, keyfiyyətli olması, yeni maliyyə mənbələrinin müəyyən edilməsi, məşğulluğun artırılması, sosial göstəricilərin yaxşılaşdırılması üçün hökumət, müvafiq iqtisadi strukturlar daha fəal peşəkarlıq nümayiş etdirirlər.

Cənab Sədr, mən komitələrin, Milli Məclisin adından Sizə təşəkkürümüzü bildirirəm ki, dövlət büdcəsinin müzakirələri yüksək səviyyədə təşkil olunub. Yekun olaraq millət vəkillərindən bu qanun layihəsinə ikinci oxunuşda müsbət səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Çox sağ olun. Bildiyiniz kimi, bu, ikinci oxunuşdur. İlk növbədə, biz qanun layihəsini əsas kimi qəbul eləməliyik. Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi. Çox sağ olun.

Hörmətli millət vəkilləri, keçən iclaslarımızda 44 nəfər millət vəkili çıxış elədi. Komitələrdə 35 nəfər çox geniş müzakirələr apardı. Amma keçən iclasda bizim bəzi həmkarlar yazılmışdı, mən söz vermişdim ki, onlara ikinci oxunuşda söz verəcəyik. Əgər etiraz yoxdursa, həmin yazılanlara söz verək. Ondan sonra maliyyə naziri ikinci

oxunuşda bizim verdiyimiz təkliflərlə bağlı çıxış eləsin. Etiraz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir).*

**Sədrlik edən.** Buyursun Sahibə Qafarova.

**S.Qafarova.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar və media nümayəndələri! Bu gün 2019-cu ilin büdcə layihəsinin ikinci oxunuşudur və düşünürəm ki, deyilənləri təkrarlamağa ehtiyac yoxdur. Sadəcə, mən öz çıxışımda bir neçə məqama toxunmaq istərdim. İlk növbədə, onu qeyd etmək lazımdır ki, burada sadalanan çoxsaylı faktlardan da aydın göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan bütün sahələrdə yüksək inkişaf göstəricilərinə nail olub. Əlbəttə, bu möhtəşəm nailiyyətlərin əldə olunmasında ölkəmizin uğurlu büdcə siyasətinin də mühüm rolu vardır. Tam əminliklə demək olar ki, 2019-cu ilin büdcə layihəsi hazırlanarkən onun sosial yönümlülüyü ciddi şəkildə nəzərə alınıb. Gələn ilin büdcə layihəsində sosial xərclərin üstünlük təşkil etməsi möhtərəm Prezidentin sosial sahənin prioritetliyinin təmin olunması ilə bağlı verdiyi tapşırıqlara əməl olunmasını təsdiq edir. Bu, eyni zamanda, gələn ilin dövlət büdcəsi layihəsi hazırlanarkən əhalinin rifah halının və sosial müdafiəsinin daha da gücləndirilməsinin əsas məqsəd kimi qarşıya qoyulduğunu təsdiq edir.

Mən xüsusilə təhsil sahəsinə ayrılan xərclərin artırılmasını da uğurlu bir addım kimi qiymətləndirirəm. Belə ki, 2019-cu ildə təhsil xərclərinə ayrılan vəsait cari ilə nisbətən 11,3 faiz çoxdur və dövlət büdcəsinin xərclərinin tərtibində bunun xüsusi çəkisi 9,2 faiz təşkil edir. Əlbəttə, bu, Azərbaycanda təhsil sahəsində uğurla həyata keçirilən islahatların davamlılığını, təhsil infrastrukturunun yenilən-

məsini də təmin edəcək.

Mən bir neçə məqama da toxunmaq istərdim. Məlumdur ki, 2014-cü ildən etibarən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının həyata keçirilməsi nəticəsində regionların həm iqtisadi, həm də infrastruktur göstəriciləri əhəmiyyətli dərəcədə dəyişilib və bu gün büdcə layihəsinə nəzər salanda gələn il də regionların həyatında çox mühüm uğurlara rəvac verəcək tədbirlərin həyata keçirilməsi üçün ciddi vəsaitin ayrılacağını görürük. Müxtəlif bölmələr üzrə nəzərdə tutulan tədbirlər, əminəm ki, regionlarda daha böyük canlanmanın və inkişafın olacağını söyləməyə əsas verir.

Ötən illər ərzində mənim təmsil etdiyim Şəmkir rayonunda da çox sayda layihələr reallaşdırılıb, dövlət proqramlarında nəzərdə tutulan məsələlər uğurla həll olunub. Bununla belə, seçicilərimiz görüşlərimizdə və bizə ünvanlanan müraciətlərində bir neçə mühüm məsələnin həll olunmasını xahiş edirlər. Bunlardan biri Şəmkir şəhər Füzuli adına orta məktəbin yenidən qurulması və Şəmkir şəhər Cahangir Rüstəmov adına orta məktəbin əsaslı şəkildə təmir olunmasıdır.

İkinci məsələ isə dağ kəndi olan Atabəy kəndinin qazla təmin olunması və bir neçə kənddə – Əliyaqublu, Dağcəyir kəndlərində mədəniyyət evlərinin əsaslı şəkildə təmir olunması və ya yenidən qurulması ilə bağlıdır.

Hörmətli həmkarlar, son olaraq mən bir daha gələn ilin dövlət büdcəsini yüksək qiymətləndirirəm və əminəm ki, büdcə layihəsində nəzərdə tutulan tədbirlərin uğurlu icrası nəticəsində Azərbaycan gələn il də özünün dinamik inkişafını davam etdirəcək. Mən büdcə layihəsinə səs verəcəyəm və həmkarlarımı da səs verməyə çağırıram. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Mirkazım Kazımov.

**M.Kazımov.** Təşəkkür edirəm, hörmətli cənab Sədr. Hörmətli hökumət üzvləri, millət vəkilləri, iqtisadi baxımdan qloballaşan dünyada və risklərin artdığı bir şəraitdə ölkəmizin iqtisadiyyatı bu gün davamlılığını və dayanıqlılığını saxlayır, özünün yeni inkişaf mərhələsinə keçir. Bu iqtisadi uğurların əldə edilməsində dövlət büdcəsinin xüsusi yeri vardır. Qeyd etmək istərdim ki, son illər dövlət büdcəsinin hazırlanmasında və parlamentə təqdim olunmasında iştirak edən dövlət qurumları, xüsusən Maliyyə Nazirliyi bu işə diqqət və məsuliyyət ilə yanaşırlar. Məhz bunun nəticəsidir ki, dövlət büdcəsinin strukturu və göstəriciləri ildən-ilə təkmilləşir, iqtisadi inkişafa münbit şərait yaradır.

Büdcə zərfinə daxil olan sənədlərdən də göründüyü kimi, növbəti ilin dövlət büdcəsinin gəlirləri 23 milyard manata yaxındır. Bu da cari illə müqayisədə 3,5 faiz çoxdur. Gəlirlərin 40 faizi qeyri-neft sektoru üzrə daxilolmaların payına düşür. Dövlət büdcəsinin xərcləri ümumi daxili məhsulun 30,2 faizi həcmində hesablanmaqla 24,8 milyon manat civarında müəyyənləşdirilir.

Son illərdə olduğu kimi, 2019-cu ilin növbəti dövlət büdcəsi də sosialyönümlü büdcə olacaqdır. Növbəti ildə sosial tədbirlərə 6,4 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 14 faiz çox deməkdir. Qeyd edilməlidir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu sosial siyasət nəticəsində ölkədə dayanıqlı sosial müdafiə və təminat sistemi yaradılıb.

Bu gün Əhalinin Əmək və Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən uğurlu islahatların, görülən tədbirlərin kökündə ölkə vətəndaşının sosial rifahının, həyat şəraitinin daha da yaxşılaşdırılması durur. Bu baxım-

dan, gələn il dövlət büdcəsində sosial müdafiə üçün nəzərdə tutulan ayırmalar bu işlərin icrasını sürətləndirəcəkdir.

Hörmətli millət vəkilləri, qeyri-neft sektorunun mühüm sahəsi olan aqrar bölmənin inkişafı hökumətin daim diqqət mərkəzindədir. Ölkədə həyata keçirilən geniş miqyaslı aqrar islahatlar hesabına kənd təsərrüfatının inkişafı dayanıqlı hal almışdır. 2003–2017-ci illərdə kənd təsərrüfatı məhsullarının istehsalı 1,7 dəfə artmışdır. Kənd Təsərrüfatı Nazirliyinin bu gün həyata keçirdiyi islahatlar, məqsədyönlü tədbirlər nəticəsində bu vacib sahənin inkişaf tempi saxlanmaqdadır. Belə ki, cari ilin ilk 9 ayında kənd təsərrüfatı məhsullarının istehsalı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,3 faiz, o cümlədən bitkiçilik məhsullarının istehsalı üzrə 5,8 faiz artmışdır. 2019-cu ilin dövlət büdcəsində kənd təsərrüfatı tədbirləri üçün 477,5 milyon manat, meliorasiya, irriqasiya və suvarma sistemlərinin maliyyə təminatı üçün 294 milyon manat vəsait proqnozlaşdırılmışdır. İcra olunan proqramların çərçivəsində mineral gübrələrə görə verilən subsidiyaların yuxarı həddinin 100 manatdan 150 manatadək, pestisidlərə görə isə 10 manatdan 50 manatadək artırılması nəticəsində lazım olan 123 milyon vəsait gələn ilin dövlət büdcəsində nəzərə alınmışdır.

Kənd təsərrüfatının inkişafı ilə bağlı yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi, suvarılan sahələrin genişləndirilməsi və meliorasiya tədbirlərinin maliyyə təminatı üçün dövlət büdcəsində əlavə olaraq 45 milyon manata yaxın vəsait nəzərdə tutulmuşdur. Bütün bunlar hökumətin ölkənin aqrar sektoruna, ərzaq təhlükəsizliyinə diqqətinin təzahürüdür.

Bu gün Vergilər Nazirliyində də, Əmlak Məsələləri Dövlət Komitəsində də çox vacib islahatlar aparılır. Bu

tədbirlər vergi yükünün azaldılmasına xidmət etməklə yanaşı, büdcəyə daxilolmaların artmasına, sahibkarlar üçün daha əlverişli şəraitin yaradılmasına imkan verir.

Hörmətli millət vəkilləri, çıxışımı yekunlaşdıraraq bir daha qeyd etmək istərdim ki, dövlət büdcəsi sənədləri son dövrdə büdcə sistemi haqqında qanunvericilikdə mütərəqqi dəyişikliklərin tələblərinə müvafiq olaraq hazırlanmışdır. Qanun layihəsi qəbul olunmaq üçün hazırdır. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Cavanşir Paşazadə.

**C.Paşazadə.** Hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri! 2019-cu ilin büdcə zərfi mükəmməl hazırlanıb. Büdcə zərfində zəhməti olan hər kəsə təşəkkür edirəm. Mən də büdcə layihəsinin qəbul edilməsinə, onun ölkəmizin və millətimizin xeyrinə olacağına inandığım üçün layihəyə səs verəcəyəm. Fürsətdən istifadə edərək bir neçə məsələni hökumətimizin diqqətinə çatdırmaq istərdim. Bildiyiniz kimi, son illərdə respublikamızın yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələr uğurla icra olunub. Prezident İlham Əliyevin sərəncamı və göstərişi əsasında Azərbaycanı digər ölkələr ilə bağlayan əsas magistral yolların müasir səviyyəyə çatdırılması istiqamətində uğurlu layihələr həyata keçirilir. Oktyabr ayında cənab Prezidentimiz cənub bölgəsinə səfəri zamanı bir sıra infrastruktur layihələrinin açılışını da həyata keçirdi.

Cənub bölgəsi üçün böyük əhəmiyyət kəsb edən layihələrdən biri də Ələt–Astara–İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun istifadəyə verilməsi hadisəsi idi. Bu yolun müasir səviyyədə yenidən qurulması yük və sərnişin daşınmasını xeyli yaxşılaşdırdı, eyni zamanda, yetişdirilən məhsulların rahat şəkildə bazarlara

daşınmasına imkan yarada bilər və bölgənin turizm potensialının möhkəmləndirilməsi işində də xidmət göstərəcəkdir. Əhalinin sosial rifahının yüksəldilməsi, inkişafı, yüksək standartlara cavab verən yolun yenidən istifadəyə verilməsi bütün cənublular tərəfindən böyük sevinclə qarşılanıb. Cənab Prezidentin Lənkərana səfəri zamanı "Lənkəran rayonunda bir dənə də problem qalmasın" deməsi lənkəranlılara ruh yüksəkliyi verib.

Bu məsələ ilə yanaşı, mən Azərbaycanda çayçılığın inkişafı ilə bağlı iki zəruri məsələni diqqətinizə çatdırmaq istərdim. Bildiyiniz kimi, Prezident İlham Əliyev tərəfindən fevralın 12-də "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018–2027-ci illər üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalanmışdır. Belə bir dövlət proqramının qəbul olunması çox yüksək qiymətləndirilir. Bu proqramın həyata keçirilməsi respublikamızda çayçılıq ənənələrinin qorunub inkişaf etməsinə, regionun aqrar-sənaye potensialının artmasına, rəqabətin yaranmasına, daxili tələbatın ödənilməsinə, idxalın azalmasına, Azərbaycanda çay emalı müəssisələrinin məhsullarının ixracına və çayçılıqla bağlı digər sahələrin inkişafına şərait yaradacaq.

Ancaq bir məsələni də qeyd etmək lazımdır ki, dövlət proqramının 8.1.4-cü maddəsində qarşıya qoyulan məsələlərdən biri çayçılıq sahəsində fəaliyyət göstərən kiçik ailə-kəndli və fermer təsərrüfatlarının könüllülük əsasında kooperasiyasının təşviqi məsələsidir. Proqramın qəbulundan müəyyən müddət keçməsinə baxmayaraq, istiqamətli işlərə əməl edilməyib. Bu da görülən işlərə kölgə salır. Birinin sahəsi, o birinin texnikası, digərinin işçi potensialı yüksək olduğu təqdirdə fermerlərin güclərinin birləşdirilməsi Lənkəranda çay məhsullarının yüksək səviyyədə

istehsalına səbəb olub. Statistika göstəriciləri deməyə əsas verir ki, çay istehsalında ciddi artım müşahidə olunur. Ancaq artım olmasına baxmayaraq, biz hələ də xaricdən çay idxal eləməyə məcburuq. Bu da külli miqdarda vəsaitin xaricə axmasına gətirib çıxarır.

Sadaladığım faktlarla yanaşı, həmin dövlət proqramının 8.1.6-cı maddəsində çayçılıq sahəsində mütərəqqi sığorta mexanizminin yaradılması da öz həllini gözləyən məsələlər sırasındadır. 2019-cu ilə qədər bu proses tam yekunlaşmalı olduğu halda, bu istiqamətdə nəzərəçarpan addımlar atılmayıb. Halbuki bu sahə üzrə sığorta mexanizminin işə düşməsi fermerləri yeni çay plantasiyaları salmağa sövq etdirməklə yanaşı, onların bu sahədə bilik və bacarıqlarını artırmağa da stimullaşdıracaq, gənclərin bu sahəyə maraq göstərməsinə gətirib çıxaracaq. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Novruzəli Aslanov.

**N.Aslanov**. Hörmətli Sədr, hörmətli hökumət nümayəndələri! Ölkə iqtisadiyyatının sürətli inkişaf dinamikasını ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş sosial-iqtisadi islahatların ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davamının məntiqi nəticəsi kimi qiymətləndirmək olar. Belə ki, son zamanlar Azərbaycan iqtisadiyyatının inkişafı yüksək dinamizm və artım sürəti ilə müşayiət olunur. Güclü dövlətin güclü büdcəsi və maliyyə potensialı olmalıdır. Azərbaycanda bu potensial mövcuddur və gündən-günə artmaqdadır. Bu gün bizə təqdim olunan büdcə paketində bunu görmək mümkündür. 2019-cu ilin dövlət büdcəsi artıq komitələrdə geniş müzakirə olunmuş, hökumət qurumlarının nümayəndələri və deputat həmkarlarım da öz təklif və tövsiyələrini vermişlər.

Mən vacib bir məsələyə diqqətinizi yönəltmək istəyi-

rəm. Büdcədə nəzərdə tutulmuş “Prezidentin Ehtiyat Fondu” bölümünə xüsusi diqqət yetirilməli və fondun imkanları daha da artırılmalıdır. Çünki Prezidentin Ehtiyat Fondu özünün operativliyi və çevikliyi ilə seçilən maliyyə bazasıdır. O, zəruri hallarda bu və ya digər sahələrə operativ olaraq maliyyə vəsaitinin ayrılmasını təmin edir. Bununla da hər hansı bir layihənin icrasında nə maliyyə çatışmazlığı, nə də hər hansı bir problem olmur. Belə ki, respublikanın şəhər və rayonlarında sosial-iqtisadi və digər layihələrin həyata keçirilməsində məhz Prezidentin Ehtiyat Fondunun müstəsna rolu vardır. Son zamanlar bölgələrə səfərlərində müxtəlif obyektlərin açılışı zamanı məhz cənab Prezidentin özünün iştirak etməsi, yerli sakinlərin fikirlərini şəxsən dinləməsi, onların arzu və istəklərinin nəzərə alınaraq gələcəkdə yeni layihələrin həyata keçirilməsi üçün Ehtiyat Fondundan maliyyə vəsaitinin ayrılması bunun bariz nümunələrindəndir.

İsmayıllı rayonundan seçilən deputat kimi onu deyə bilərəm ki, son iki ildə İsmayıllı rayonunda kifayət qədər uğurlu layihələr həyata keçirilmişdir. Buna misal olaraq dövlət başçısı tərəfindən imzalanmış sərəncamlara əsasən “Basqal” Dövlət Tarixi-Mədəniyyət Qoruğunun qorunması və bərpasını, İvanovka kəndində mədəniyyət sarayının əsaslı təmirini, Şamaxı rayonunun Dəmirçi kəndindən Lahıc qəsəbəsinə yeni çəkilmiş avtomobil yolunu, Lahıc qəsəbəsinin qazla təmin olunmasını, yeni ümumtəhsil məktəbinin istifadəyə verilməsini, həmçinin müasir heyvandarlıq kompleksini, “Azərxalça”nın İsmayıllı filialını və sair bir çox nümunələri göstərə bilərəm. Bu cür layihələr bütün bölgələrdə həyata keçirilir.

Hamıya məlumdur ki, cənab Prezident bölgələrə səfərlərindən sonra yeni layihələrin həyata keçirilməsi üçün

Prezidentin Ehtiyat Fondundan maliyyə vəsaiti ayırır. Bu da bölgələrdə zəruri layihələrin icrasının operativliyini tam təmin edir, əhalinin rifahının yüksəlməsinə xidmət edir. Zənnimcə, Prezidentin Ehtiyat Fondunun maliyyə imkanlarını daha da artırmaq lazımdır.

Nəzər yetirmək istədiyim digər bir məsələ isə mədəniyyət sahəsinə aiddir. Komitələrdə müzakirələr zamanı respublikanın mədəni həyatı diqqət mərkəzində olmuşdur. Azərbaycanın zəngin tarixinin əsas atributlarından olan mədəni-tarixi abidələrimizin qorunması və bərpası milli-mənəvi dəyərlərimizin və mədəni irsimizin gələcək nəsillərə çatdırılmasında xüsusi önəm daşıyır. Tariximizi əks etdirən kifayət qədər mədəni abidələrimiz mövcuddur. Onların hamısı qorunur və böyük əksəriyyəti bərpa olunaraq ictimaiyyətə təqdim olunur. Bunun davamlı olması üçün maliyyə dəstəyinə ehtiyac vardır. Hesab edirəm ki, bu sahənin inkişafı üçün də Mədəniyyət Nazirliyinə büdcədən maliyyə vəsaitinin ayrılması daha məqsədəuyğun olardı.

Qeyri-hökumət strukturlarına, ictimai və ərazi birliklərinə büdcədən verilən maliyyə dəstəyi vətəndaş cəmiyyətinin inkişafına böyük xidmət göstərir. Bu da respublika rəhbərliyinin bu sahəyə ayırdığı xüsusi diqqətin və qayğının təzahürü kimi dəyərləndirilir. Bunu 100 illiyini qeyd etməyə hazırlaşan Azərbaycan Qızıl Aypara Cəmiyyəti daim öz üzərində hiss etmişdir. Belə ki, müvafiq beynəlxalq təşkilatlara üzvlük haqları və digər məsələlərlə bağlı Maliyə Nazirliyinə müraciətlərimiz daim nazirliyin rəhbərliyi tərəfindən dəstəklənmişdir. Ümid edirik ki, bu dəstək bundan sonra da davam edəcəkdir.

Bir daha belə mükəmməl, həyatımızın bütün sahələrini tam əhatə edən büdcənin hazırlanmasında əməyi olan hər

bir şəxsə öz təşəkkürümü bildirirəm. İnanıram ki, bu büdcə tövsiyə və təkliflər nəzərə alınmaqla parlament tərəfindən qəbul olunacaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Mirzəcan Xəlilov.

**M.Xəlilov**. Hörmətli hökumət üzvləri, hörmətli deputatlar, artıq bir neçə gündür, 2019-cu ilin dövlət büdcəsi müzakirə olunur. Büdcənin hazırlanmasında təcrübəli mütəxəssislərin rolu özünü göstərir. Büdcədə qeyri-neft sektoruna verilən üstünlük xüsusi olaraq nəzərə çarpır. Ticarət dövriyyəsinin tərkibində qeyri-neft məhsullarının ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,5 faiz artmışdır ki, bu da, əsasən, turizmdən daxilolmalar, kənd təsərrüfatı məhsulları istehsalının inkişafı ilə əlaqədardır. Ölkəyə daxil olan valyutada qeyri-neft sektorunun liderliyini hələ ki, pomidor qoruyub saxlayır. Növbəti yerləri qızıl və fındıq təşkil edir. Lakin bütün ixrac məhsullarının ərsəyə gəlməsi üçün kifayət qədər vaxt tələb olunur. Pomidor məhsulunun artırılması üçün o qədər də vaxt lazım deyil. Hörmətli həmkarım Kənd Təsərrüfatı Nazirliyinə rəhbərlik etdiyi gündən onun kənd təsərrüfatı sahəsində həyata keçirdiyi kifayət qədər yeniliklərin şahidiyik. Bu sahədə islahatlara ehtiyac var.

Bildiyimiz kimi, pambıq əkilən sahələr kəndlərdən kənarda yerləşir. Bu sahələr ayrı-ayrı kəndlilərin torpaq paylarıdır. Pambığın əkilib- becərilməsində müəyyən çətinliklər meydana çıxır. Kooperasiya haqqında qanunun qəbul olunmasına baxmayaraq, bu yöndə işlər hələ də aparılmır. Torpaqların birləşdirilməsi üçün kəndlilər arasında maarifləndirmə aparılması vacibdir. Kiçik torpaq sahələri pambıq əkini üçün sərfəli deyil. İstər pambığın becərilməsində, istərsə də maşınlarla yığılmasında ciddi problemlər meydana gəlir. Artıq Sabirabadda bu addım atılmış

və ilk kooperativ yaradılmışdır. Bu çox sevindirici haldır.

Hörmətli hökumət üzvləri, hörmətli həmkarlar, mən qeyd etdim ki, pomidor məhsulu valyuta gətirməkdə birincidir. Bu məhsullar yüksək texnologiyalarla qurulmuş xüsusi istixanalarda yetişdirilir və maya dəyəri o qədər də ucuz deyil. İsti aylarda istixana məhsullarından istifadə edilmir. İstixanalar, əsasən, Bakıətrafı kəndlərdə çoxluq təşkil edir. Elə etmək lazımdır ki, bu məhsullar regionlarda geniş şəkildə yetişdirilsin. Azərbaycanın əksər rayonlarında, xüsusən aran bölgələrində pomidoru açıq hava şəraitində yetişdirmək mümkündür. Bu, əvvəllər də belə olmuşdu. Bütün rayonlarda, kəndlərdə həyətyanı sahələr suvarılan və çox məhsuldar torpaqlardır. Lakin kəndli həmin sahələrdən düzgün istifadə edə bilmir. Əkdiyi məhsulları sata bilmir. Beləliklə, yararlı torpaqların əsas hissəsi kəndliyə xeyir vermir.

Hamımızın yadındadır, xüsusi tədarük məntəqələri mövcud idi. Kəndlinin həyətyanı sahəsinə də əkdiyi pomidorları vaqonlarla birbaşa Rusiyaya, Ukraynaya və başqa respublikalara aparırdılar. Bütün bunların həyata keçirilməsi üçün aidiyyəti qurumlar tərəfindən məhsulun bazarının təşkil edilməsi vacib şərtdir. Bazar çox vacib amildir. Açıq şəraitdə pomidor yetişdirmək üçün cəmi 3 ay, yəni aprel–may–iyun ayları bəs edir. Aprel ayında şitil açıq şəraitdə əkilir və iyun ayının sonunda məhsulu göy halda toplayıb qatarla yola salmaq lazım gəlir. Bu zamanda da Kənd Təsərrüfatı Nazirliyinin köməyinə ciddi ehtiyac olacaq. Belə ki, açıq şəraitə uyğun məhsuldar sortların əldə edilməsi vacibdir.

Mənim yadımdadır, ən yaxşı məhsuldar pomidor sortu Krasnodar və Volqoqrad pomidoru idi. Krasnodar pomidorunun 1 ədədi 500 qram olurdu. Pomidor şitillərinin

mərkəzləşdirilmiş qaydada yetişdirilməsi də yaxşı olardı. Qeyd edirəm ki, əsas amil bazardır və məhsulun daşınması üçün "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən qatarla təmin edilməsidir. Bu olarsa, Azərbaycan kəndlisi istənilən qədər pomidor istehsal edəcək. Mən inanıram ki, bu sahədə edilən yeniliklər büdcəyə gəlir gətirməklə yanaşı, Azərbaycan kəndlisinin rifahını xeyli yüksəldəcək.

Hörmətli cənablar, komitə iclaslarında büdcənin müzakirələri zamanı Milli Məclisin deputatları tərəfindən bəzi məsələlər qaldırılmış, müəyyən xahişlər edilmiş və maliyyə naziri cənab Samir Şərifov təkliflərin nəzərə alındığını diqqətimizə çatdırmışdı.

15 min əhalisi olan Sumqayıt şəhər Corat qəsəbə sakinləri adından mən Nazirlər Kabinetinə, iqtisadiyyat və maliyyə nazirlərinə uşaq bağçasının tikintisi üçün müraciət edirəm. Qəsəbə sakinləri Azərbaycan Respublikası Prezidentinin seçkiqabağı təbliğat-təşviqat kampaniyasında uşaq bağçalarının olmaması və bağça tikintisi ilə bağlı məsələlərin qaldırılmasını məndən xahiş etmişdilər. Onlar Sumqayıt şəhərində aparılan yenidənqurma işlərindən tam razılıq edirdilər. Amma uşaq bağçasının tikintisinin məhz çox sevdikləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən hədiyyə olmasını arzulamışdılar.

Hörmətli cənablar, hörmətli hökumət üzvləri, mən hesab edirəm ki, sizin Milli Məclis üzvlərinin ən kiçik təkliflərini nəzərə almağınız təkcə deputata hörmətiniz deyil, birbaşa Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Azərbaycan Respublikasının Milli Məclisinə və Azərbaycan seçicisinə olan diqqətiniz və hörmətinizdir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli millət vəkilləri, əgər etiraz eləmirsinizsə, maliyyə naziri Samir Şərifova söz verək, müzakirələrdə qaldırılan sualları, məsələləri, nələri həll eləyiblər, bu haqda bizə məruzə eləsin.

**S.Şərifov,** *Azərbaycan Respublikasının maliyyə naziri.*

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, xanımlar və cənablar! 2019-cu il dövlət büdcəsinin zərfinə daxil olan Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında qanun layihəsi ilə yanaşı, digər qanun layihələri və sənədlər toplusu Milli Məclisin komitələrinin iclaslarında və plenar iclasında bir neçə dəfə ətraflı müzakirə edilmişdir. Qanun layihəsi birinci oxunuşda qəbul edilmişdir. Müzakirələr zamanı hörmətli millət vəkilləri tərəfindən irəli sürülən təklif və tövsiyələr hökumət tərəfindən ilkin olaraq təhlil edilmiş, bəzi tədbirlər üzrə xərclərin artırılması üçün tələb olunan maliyyə təminatının mənbəyi, görüləcək işlərin fiziki həcmi, icra müddəti və xüsusiyyətləri nəzərdən keçirilmişdir. Digər tərəfdən qaldırılan məsələlərin həlli üçün maliyyə təminatının yaradılmasına 2019-cu ildə və sonrakı 3 ildə makroiqtisadi sabitliyin qorunub saxlanılması və büdcə dayanıqlığının təmin edilməsi prizmasından da baxılmışdır. Bu zaman yeni qəbul edilmiş büdcə qaydasının əsas prinsipləri qorunmuşdur.

İlk növbədə büdcənin kontr-tsiklik olması prinsipləri rəhbər tutulur. Bütün bunları nəzərə alaraq bəzi cari məsələlərin müsbət həlli istiqamətində təkliflər hazırlanmışdır ki, onları da hörmətli millət vəkillərinin diqqətinə çatdırmaq istərdim. Bütövlükdə irəli sürüləcək təkliflərin məcmu maliyyə tutumu 610 milyon manat təşkil edir. Artımın əsas hissəsi sosial təyinatlı layihələrin maliyyələşdirilməsinə yönəldiləcək. Belə ki, məcburi köçkünlərin sosial

müdafiəsinin gücləndirilməsi, onların mənzil şəraitinin yaxşılaşdırılması üçün 2019-cu ildə Dövlət Neft Fondunun büdcəsindən bu məqsədə 200 milyon vəsaitin ayrılması nəzərdə tutulur. Regionlarda məşğulluq səviyyəsinin artırılması məqsədi ilə məşğulluq tədbirlərinin keçirilməsi üçün 2019-cu ilin dövlət büdcəsindən əlavə olaraq 80 milyon manat vəsaitin ayrılması təklif olunur. 2019–2020-ci tədris ilindən başlayaraq ölkə üzrə ali təhsil alanların tərkibində dövlət sifarişi ilə ali təhsil alanların xüsusi çəkisinin təxminən 20 faiz artırılması və digər təhsil tədbirləri üçün əlavə olaraq 11 milyon vəsait təhsil xərclərinə yönəldiləcəkdir.

Gənclər Fondunun növbəti il üçün nəzərdə tutulmuş xərcləri əlavə olaraq 2,7 milyon manat artırılacaq. Bu da cari illə müqayisədə 4,4 dəfə çox deməkdir. Milli Elmlər Akademiyasının xərcləri 800 min manat artırılacaq. Yeni doğulmuş eşitmə və ürək qüsuru olan uşaqların müalicəsi üçün də səhiyyə xərclərinə əlavə 4 milyon manat nəzərdə tutulub.

2019-cu il dövlət büdcəsi layihəsinin Milli Məclisə təqdim edilməsi, həmçinin müzakirələr ərəfəsində Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncam və fərmanları ilə yeni yaradılmış və strukturunda müvafiq dəyişiklik edilmiş bir sıra təşkilatların maliyyə təminatının həll edilməsi məsələləri üçün 5,5 milyon manat vəsait ayrılacaqdır. Təşkilatlar hansılardır? Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi publik hüquqi şəxsi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti, İnnova-

siyalar Agentliyi publik hüquqi şəxsi, Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidməti publik hüquqi şəxsi və Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi publik hüquqi şəxsinin maliyyə təminatı məsələləri.

Maliyyə təminatının daha da yaxşılaşdırılması ilə bağlı Milli Məclisin 2019-cu il üçün nəzərdə tutulmuş saxlama xərclərinin 10,1 milyon manat məbləğində artırılması təklif edilir. Yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi, suvarılan sahələrin artırılması və digər meliorativ tədbirlərin həyata keçirilməsi üçün kənd təsərrüfatı xərclərinə əlavə olaraq 40 milyon manat vəsaitin ayrılması təklif edilir. Bununla yanaşı, 256 milyon manat məbləğində vəsaitin islahatların həyata keçirilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə yönəldilməsi nəzərdə tutulur. Eyni zamanda, səsləndirilmiş təklif qəbul edilib və bələdiyyələrə ayrılan subvensiyanın artırılması məqsədi ilə onlara verilən dotasiyalar 500 min manat məbləğində azaldılacaq.

Onu da qeyd etmək istərdim ki, hörmətli millət vəkilləri tərəfindən  səsləndirilən bir sıra təkliflər ənənəyə uyğun olaraq hökumət tərəfindən təhlil ediləcək və bunların maliyyə təminatının hazırlanması üçün, şübhəsiz, daha çox vaxt tələb olunduğuna görə bu məsələlər çox güman ki, növbəti illərin büdcəsində öz əksini tapacaqdır. Onu da qeyd etmək istərdim ki, hörmətli millət vəkillərimiz tərəfindən dövlət büdcəsinin layihəsinin müzakirəsi zamanı səsləndirilən əlavə təkliflərin ilkin maliyyə tutumu 7 milyard manat əlavə vəsait tələb edir.

Şübhəsiz ki, bu vəsaitin dövlət büdcəsinin xərclərinə əlavə edilməsi, yəqin ki, qeyri-real olar. Ona görə bu məsələlər dərindən öyrənilir və öyrənildikdən sonra bunların məhz müsbət həlli istiqamətində müvafiq təkliflər mər-

hələli qaydada təqdim olunacaqdır. Qəbul olunduğu təqdirdə sadalanan təkliflərin maliyyə təminatı üçün əlavə mənbə yaradılmalıdır və bu mənbənin yaradılmasının aşağıdakı gəlirlər hesabına təmin edilməsi nəzərdə tutulur.

İlk növbədə 2019-cu il dövlət büdcəsində Dövlət Gömrük Komitəsi vasitəsi ilə nəzərdə tutulan daxilolmaların artırılması hesabına biz bu mənbəni 251 milyon manat məbləğində artırmaq istəyirik. Eyni zamanda, dövlət büdcəsinin kəsirini də 159 milyon manat məbləğində artırmaq hədəflənir. Nəticədə dövlət büdcəsinin gəlirləri ilkin proqnoza nisbətən 251 milyon manat, yaxud 1,1 faiz artaraq 23 milyard 168 milyon manat təşkil edəcək. Müvafiq olaraq dövlət büdcəsinin xərcləri ilkin proqnoza nisbətən 410 milyon manat və ya 1,7 faiz artaraq 25 milyard 190 milyon manat təşkil edəcək.

Xərclərin ümumi daxili məhsulda xüsusi çəkisi 2019-cu illə müqayisədə 0,7 faiz-bənd artaraq 30,7 faiz təşkil edəcəkdir. Strukturuna görə dövlət büdcəsinin əsaslı xərcləri ilkin proqnoza nisbətən 291 milyon manat və ya 2,9 faiz artaraq 10 milyard 182 milyon manat, cari xərclər isə ilkin proqnoza nisbətən 119 milyon manat və ya 0,9 faiz artırılaraq 12 milyard 673 milyon manat təşkil edəcəkdir. Dövlət büdcəsinin kəsiri, qeyd etdiyim kimi, 159 milyon manat məbləğində artırılacaq və 2 milyard 22 milyon manat təşkil edəcəkdir. Onun ümumi daxili məhsula nisbəti isə dəyişməyərək 2,5 faiz təşkil edəcəkdir. Dövlət büdcəsi kəsirinin maliyyələşməsi isə əsasən, daxili bazarda qiymətli kağızların buraxılması hesabına təmin olunacaq.

Dövlət büdcəsində və Dövlət Neft Fondunun büdcəsində ediləcək əlavə və dəyişikliklərə, həmçinin "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununa edilmiş dəyişikliklərə müvafiq olaraq icmal büdcənin gəlir və

xərclərinin hesablanması zamanı yeni metodologiyanın tətbiqi, yəni dövlət büdcəsindən Dövlət Sosial Müdafiə Fonduna nəzərdə tutulan transfertin və dövlət büdcəsindən maliyyələşən təşkilatların məcburi dövlət sosial sığorta haqlarının icmal büdcənin gəlir və xərclərindən çıxılması hesabına onun strukturunda müvafiq dəyişikliklər baş verəcəkdir. Bu hesabla icmal büdcənin gəlirləri 29 milyard 149 milyon manat, xərcləri isə 27 milyard 156 milyon manat təşkil edəcəkdir. Bunun nəticəsində icmal büdcənin profisiti 1 milyard 993 milyon manat təşkil edəcək. Bir daha qeyd etmək istərdim ki, icmal büdcənin tərtibi üzrə tətbiq edilən metodologiya sırf texniki xarakter daşımaqla icmal büdcənin strukturuna daxil olan dövlət büdcəsinin, Dövlət Sosial Müdafiə Fondunun, Dövlət Neft Fondunun, Naxçıvan Muxtar Respublikasının büdcələrinin parametrlərinə təsir etmir.

Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, çıxışımın sonunda Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev tərəfindən Milli Məclisin müzakirəsinə təqdim olunmuş 2019-cu il Dövlət büdcəsi haqqında qanun layihəsinə hazırda diqqətinizə təqdim olunmuş məlumatlar və təqdim edilmiş dəyişikliklər də nəzərə alınmaqla sizi səs verməyə dəvət edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Samir müəllim çıxış etdi. Əgər başqa bir fikir yoxdursa, xahiş edirəm, ikinci oxunuşda dövlət büdcəsi layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.45 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 2 |
| Bitərəf | 2 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, layihə ikinci oxunuşda qəbul edildi.

Növbəti 3-cü məsələ Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqındadır. Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Minnətdaram, cənab Sədr. Hörmətli cənab Sədr, dəyərli icra hakimiyyətinin rəhbər işçiləri, artıq 10 günə yaxındır ki, parlamentdə büdcə zərfi müzakirə olunur. Büdcə zərfində hamımızı düşündürən layihələrdən, sənədlərdən biri də sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsidir. Qeyd etmək istəyirəm ki, bizim komitədə büdcə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbər işçilərinin, bilavasitə hörmətli nazirimiz Sahil Babayevin iştirakı ilə dəfələrlə müzakirə olunub. Bu müzakirələrdə maliyyə nazirinin birinci müavini iştirak edib. Bizim səsləndirdiyimiz bütün fikirlər qeydə alınıb. Məni sevindirən hal odur ki, bu gün, hörmətli Samir müəllim qeyd etdi, təxminən yarım milyarda qədər vəsait icmal büdcəyə əlavə olunur və bu icmal büdcənin də böyük bir hissəsini sosial təminatı və sosial müdafiəni həyata keçirən orqanın büdcəsi təşkil edir. Bu da bizə bir daha ümid verir ki, deputat həmkarlarımızın səsləndirdiyi bəzi fikirlər bu layihədə sonradan öz əksini tapacaq.

Bütövlükdə büdcə sosialyönümlü büdcədir. Eyni zamanda, Dövlət  Sosial Müdafiə Fondunun büdcəsi də tutarlı büdcədir. Bu büdcədə maraqlı göstəricilər ondan iba-

rətdir ki, pensiya təminatında artım gözlənilir. Burada təxminən 350 milyon manat əlavə vəsait qoyulub və beləliklə, bu, bir daha göstərir ki, sizə təqdim olunan, bu gün ikinci oxunuşda müzakirə etdiyimiz büdcə xalqımıza, vətəndaşlarımıza xidmət edəcək.

Oqtay müəllim, icazə versəniz, İşsizlikdən Sığorta Fondunun 2019-cu il büdcəsi haqqında da qısa məlumat verərəm.

**Sədrlik edən.** Sahil müəllim, buyurun. Mən üzr istəyirəm, biz əvvəl qanun layihəsini əsas kimi qəbul etməliydik. Xahiş edirəm, əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---:|
| Lehinə | 91 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul olundu.

Buyurun, Sahil müəllim.

**S.Babayev,** *Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.*

Çox sağ olun, Oqtay müəllim. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, xanımlar və cənablar! Artıq ilk oxunuşda müzakirə edilmiş Dövlət Sosial Müdafiə Fondunun büdcəsi ilə bağlı əsas parametrləri diqqətinizə çatdırmaq istərdim. Fondun 2019-cu il üzrə büdcə xərcləri 3 milyard 928 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin müvafiq proqnoz göstəricisindən 349,34 milyon manat və ya 9,8 faiz çoxdur və bu xərclərin 97,6 faizi və ya 3 milyard 834 milyon 900 min manatı məhz əhaliyə ödənişlər istiqamətində xərclənəcəkdir. Orta aylıq əmək

haqqının artım tempi cari ildə 5,7 faiz təşkil etdiyi üçün əmək pensiyalarının indeksləşdirilməsi üçün 171 milyon manat vəsait nəzərdə tutulmuşdur və növbəti ildə əmək pensiyasının orta aylıq məbləği 6,3 faiz artaraq 241 manata, yaşa görə əmək pensiyasının orta aylıq məbləği isə 272 manata çatacaqdır.

2019-cu ildə məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlərin proqnozu 91,94 milyon manatdır. Bu da cari ilin büdcəsi üzrə proqnoza nisbətən 4,4 faiz və ya 3,8 milyon manat artıqdır. 2019-cu ilin digər xərcləri üçün isə 93,2 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Fondun büdcəsinin gəlirləri 3 milyard 928,1 milyon manat proqnozlaşdırılır, bu da 2018-ci ilin proqnoz göstəricisindən 8,9 faiz çoxdur. Gəlirlərin 61,6 faizinin məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar hesabına təmin ediləcəyi proqnozlaşdırılır. Bunun da məbləği 2 milyard 419 milyon manata bərabər və ya cari ilin proqnozu ilə müqayisədə 6 faiz artıq olacaqdır.

Məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların 61,9 faizi və ya 1 milyard 497 milyon manatı qeyri-büdcə təşkilatlarının payına düşəcək ki, bu da cari ilin proqnozundan 6,3 faiz çoxdur. Fondun büdcəsinin balanslaşdırılması məqsədi ilə dövlət öhdəliklərinin maliyyələşdirilməsi üçün 2019-cu ildə dövlət büdcəsindən ayrılan vəsaitin məbləği 1 milyard 502 milyon 730 min manat təşkil edəcəkdir ki, bu da 2018-ci ilin büdcə göstəricisi ilə müqayisədə 15,6 faiz çox olacaqdır.

Ümumilikdə, millət vəkilləri tərəfindən fondun büdcəsinə dair və həyata keçirilən sosial siyasətlə bağlı təqdim edilmiş təkliflər tərəfimizdən dəyərləndirilmişdir, əlillik, sosial müavinətlər sahəsində və eyni zamanda, məşğulluq və digər ödənişlərlə bağlı olaraq tərəfimizdən müvafiq

konsepsiyalar hazırlanır. Növbəti il ərzində əlilliyin təyinatı, meyarları və reabilitasiyası ilə bağlı müvafiq konsepsiyalar hazırlanacaqdır. Sosial ödənişlərin, sosial müavinətlərin müxtəlif növlərinin unifikasiyası və bu çərçivədə qaldırılan əsas məsələlərdən biri – uşaq pulu və digər bu kimi məsələlərin unifikasiya olunaraq məbləğlərinə təkrar baxılması, daha çox ünvanlılığın aztəminatlı ailələrə yönəldilməsinin təmin edilməsi üçün konsepsiya hazırlanacaqdır.

Əlbəttə, yanvarın 1-dən etibarən pensiyaların, məşğulluq xidmətlərinin avtomatlaşdırılması və artıq sosial reyestrin işə salınması bu sahədə olan boşluqların, süründürməçilik və səmərəsizlik kimi problemlərin aradan qaldırılmasına səbəb olacaq, eyni zamanda, vətəndaşların öz hüquqlarına əlçatanlığının təmin edilməsi baxımından böyük əhəmiyyət daşıyacaqdır. Çıxışımın sonunda bir daha hər birinizi cənab Prezident tərəfindən təqdim edilmiş bu layihələrə səs verməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Əgər başqa bir təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 4-cü məsələsi İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında qanun layihəsinin ikinci oxunuşudur. Buyurun, Hadi müəllim.

**H.Rəcəbli.** Hörmətli Oqtay müəllim, dəyərli icra hakimiyyəti strukturlarının rəhbər işçiləri, 83 milyon 421 min 400 manat məbləğində olan büdcəmiz müzakirə olunurdu. Bu rəqəm dəyişmir, eyni ilə belə qalır. Amma bizim komitə iclaslarında deputat həmkarlarım bir məntiqi fikri dönə-dönə səsləndiriblər və bu gün mən də bunu qeyd etmək istəyirəm. Hərdən bizdə "işsizlikdən sığorta" sözü işlədiləndə belə bir "ələbaxımlıq fikri" ortaya çıxa bilir, yəni bu o deməkdir ki, adamlar işləməyib, hansı isə vəsaiti ala biləcəklər. Bu büdcənin 50 faizdən çox hissəsinin bilavasitə özünüməşğulluğa yönəldilməsi onun əhəmiyyətindən xəbər verir. Beləliklə, bu büdcənin əsas məqsədi vətəndaşların özünüməşğulluğunun, ümumiyyətlə, məşğulluğun təmin olunmasıdır. Əlbəttə, pis halda işsizlikdən sığorta məqamları var, o da bizim qanunla tənzimlənir olunur və bu layihə gələcəkdə məşğulluğun daha güclü surətdə təmin olunmasına xidmət edəcək. Hesab edirəm ki, deputat həmkarlarım bu layihəyə səs verəcəklər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əgər başqa təklif yoxdursa, xahiş edirəm, ilk növbədə qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.56 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Sahil müəllim, nə isə əlavəniz var idisə, yerinizdən buyurun.

**S.Babayev**. Çox sağ olun, Oqtay müəllim. İşsizlikdən Sığorta Fondunun büdcəsi ümumilikdə 83 milyon 450 min manat məbləğində müəyyən edilibdir. Hadi müəllimin qeyd etdiyi kimi, bu məbləğin böyük bir hissəsi – 42 milyon manatı məhz özünüməşğulluq tədbirlərinə həsr olunubdur. Özünüməşğulluq tədbirləri vətəndaşlarımızın passiv sosial dəstək mexanizmindən aktiv sosial dəstək mexanizminə keçirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Cari ildə hədəf olaraq 7 minə yaxın Azərbaycan ailəsində kiçik müəssisələrin, kiçik ailə təsərrüfatlarının yaradılması qarşıya məqsəd qoyulmuşdur. Növbəti ildə bu həcm daha da artırılacaqdır. Artıq 8 mindən çox ailədə kiçik ailə təsərrüfatları yaradılacaqdır ki, bu da Azərbaycanın məşğulluq bazarına, eyni zamanda, kiçik, orta biznesin, sahibkarlığın genişlənməsinə dəstək verəcəkdir.

Digər tərəfdən, məbləğin 19 milyon 260 min manatı dövlət məşğulluq xidməti orqanlarının saxlanma xərclərinə, o cümlədən iki regional peşə tədris mərkəzinin tikintisinə sərf olunacaqdır. Peşə hazırlığı, peşə tədrisi, bildiyiniz kimi, qarşımızda duran ən böyük çağırışlardan biridir. Azərbaycanda peşə tədrisi mərkəzləri şəbəkəsinin genişləndirilməsi bizim işçi qüvvəmizin ixtisasını dəyişməsinə, məşğulluq çətinliklərinin həllinə böyük dəstək olacaqdır. Eyni zamanda, peşə hazırlığı və əlavə təhsilin təşkilinə 1,8 milyon manat, peşə yönümünə dair məsləhət xidmətlərinə 1,3 milyon manat, haqqı ödənilən ictimai işlərin təşkilinə 1,9 milyon manat vəsait ödənilməsi nəzərdə tutulur və ümumilikdə, işsizlikdən sığorta mexanizminin əsas amalı – işdən azad edilən, ixtisar olunan şəxslərə 3 ay, 6 ay, 9 ay və ya 1 il müddətinə sığorta ödənişlərinin ödənilməsi də böyük bir komponent olaraq nəzərdə tutulmuşdur.

Ümumilikdə, 11 milyon manata bərabər bir məbləğdir və müxtəlif meyarlardan asılı olaraq, vətəndaşa işdən öz

arzusu ilə azad edildikdə yeni iş tapana qədər ona orta əmək haqqının indeksasiya olunmuş məbləğində işsizlikdən sığorta ödənişi edilir. Bu mexanizm də artıq cari ildə tətbiq olunmağa başlamışdır və gələn il də biz bu mexanizmin genişlənməsini qarşıya hədəf qoymuşuq.

Ümumilikdə, İşsizlikdən Sığorta Fondunun büdcəsi növbəti ildə qarşımızda duran məşğulluq problemlərinin, məşğulluq çağırışlarının həlli istiqamətində böyük dəstək olacaqdır. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Əgər başqa fikir yoxdursa, xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti məsələ Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında qanun layihəsinin ikinci oxunuşudur. Xahiş edirəm, ilk növbədə qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, yaşayış minimumu ilə əlaqədar olaraq təklif daxil olmamışdır. Ona görə də millət vəkillərindən xahiş edərdim ki, qanun layihəsinə müsbət münasibət bildirsinlər.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Nəhayət, 6-cı məsələ Azərbaycan Respublikasında 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında qanun layihəsidir. Buyurun, Hadi müəllim.

**H.Rəcəbli.** Hörmətli cənab Sədr, plenar iclasın hörmətli iştirakçıları, bu rəqəm, bildiyimiz kimi, ünvanlı sosial yardımı ödəmək üçün nəzərdə tutulan, yaşayış minimumuna uyğunlaşdırılan rəqəmdir. Bu rəqəm əvvəlki ildən 13 manat fərqlidir, 143 manat təşkil edəcək. Demək istəyirəm ki, bunun hesabına da təxminən 15–17 min ailə yenidən ünvanlı yardım almaq iqtidarı qazanacaqdır. Çünki bu rəqəm bir daha bu qrup insanların sayını artıracaqdır.

Oqtay müəllim, bizim bütün müzakirələrdə daim bir fikir səslənir və mən bunu bir daha səsləndirmək istəyirəm. Mən Maliyyə Nazirliyinin rəhbərliyinə və digər

strukturlara minnətdaram, bizim bu fikrimizi bütövlükdə bəyəniblər. Biz rəqəm səsləndirmirik. Buna mümkün imkanlar daxilində mütləq baxmaq lazımdır. Burada minimum əmək haqqı məsələsidir. Biz yaşayış minimumundan danışdıq, ehtiyac meyarını dedik, amma mən düşünürəm ki, o məsələ də diqqət mərkəzində olmalıdır. Bütövlükdə düşünürəm ki, 143 manat normal rəqəmdir.

**Sədrlik edən.** Hadi müəllim, mən keçən dəfə də dedim, ehtiyac meyarının həddi haqqında məsələ ilə əlaqədar maliyyə naziri də, əmək və əhalinin sosial müdafiəsi naziri də buradadırlar, bu məsələyə baxmaq lazımdır. Biz həmişə eyni şeyi təkrarlayırıq. Samir müəllim, həm ehtiyac meyarı, həm də yaşayış meyarı haqqında məsələlərə baxmaq lazımdır. Biz hər il təkrar edirik.

Xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 3 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

İndi isə qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 99
Nəticə: Qəbul edildi

Çox sağ olun, qəbul edildi.

Hörmətli millət vəkilləri, gündəliyimizin 7-ci məsələsi Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Bilirsiniz ki, çox sanballı dəyişikliklər hazırlanıb. İndi biz bu qanunu birinci oxunuşda dinləyəcəyik və bu, büdcə ilə paralel getməlidir. Gələn iclasda ikinci, üçüncü oxunuşunu da keçirəcəyik. İndi Ziyad Səmədzadəyə söz verilir. Buyurun, Ziyad müəllim.

**Z.Səmədzadə.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri! Təqdim edilmiş Vergi Məcəlləsində dəyişikliklər iqtisadi həyatda gedən prosesləri bütün meyarlar baxımından obyektiv qiymətləndirmək, iqtisadiyyatın dinamik, keyfiyyətli inkişafında səmərəlilik, şəffaflıq, sahibkarlıq kimi vacib amillərin rolunu artırmaq, daha sivil, mütərəqqi əmək münasibətlərini formalaşdırmaq, kölgə iqtisadiyyatının səviyyəsini əhəmiyyətli dərəcədə azaltmaq məqsədi daşıyır. Onu da qeyd edim ki, vergilər naziri hörmətli Mikayıl müəllimin iştirakı ilə keçirilən komitə iclasında deputatlar xüsusi olaraq vurğuladılar ki, bu dəyişikliklər, sözün əsl mənasında, böyük məna daşıyır və istər iqtisadi, istər siyasi, istərsə də mənəviyyat baxımından fundamental əhəmiyyət kəsb edir. Ona görə də bu gün bu dəyişikliklərə cəmiyyətdə böyük maraq var. Dövlət başçısının bilavasitə tapşırığı ilə hazırlanan bu dəyişiklikləri aşağıdakı istiqamətlər üzrə qruplaşdırmaq olar:

Kölgə iqtisadiyyatının azaldılması və iqtisadiyyatın şəffaflaşdırılması. Biz bu fikirlə razılaşmalıyıq ki, dünyanın bütün ölkələrində olduğu kimi, respublikamızda da kölgə iqtisadiyyatı mövcuddur. Bəziləri bunu gizli iqtisadiyyat,

bəziləri leqal olmayan iqtisadiyyat adlandırır. Onun səviyyəsi barədə də müxtəlif rəqəmlər söyləyirlər. Hər halda onun səviyyəsi inkişaf etmiş ölkələrin səviyyəsindən heç də aşağı deyildir. Hökumət haqlı olaraq bu sahədə vəziyyəti yaxşılaşdırmaq üçün ilk növbədə uçotun, satışın və alışın rəsmiləşdirilməsini vacib hesab edir. Ümumiyyətlə, uçotun müvafiq qaydada – sivil qaydada aparılması bu gün qarşıda duran ən vacib məsələlərdən biri olaraq qalır.

Dəyişikliklər həm qanun pozuntularını, həm maliyyə sanksiyalarının tətbiqini, həm də qanunla müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan kiçik sahibkarlıq subyektlərinin ödədikləri dividentlərin vergidən azad edilməsini, özəl sektorda çalışan işçilərin əmək haqlarından tutulan gəlir vergisi üzrə vergi yükünün əhəmiyyətli dərəcədə azaldılmasını, dövlət orqanları ilə aparılan elektron məlumat mübadiləsinin genişləndirilməsi kimi məsələləri əhatə edir.

Dəyişikliklər vergitutma bazasının aşağıdakı tədbirlər hesabına genişləndirilməsini nəzərdə tutur. Bu gün əksər dövlətlər vergi yükünün artmasını deyil, vergi ödəyənlərin sayının artmasını təmin edirlər:

Vergi uçotunda olmayan şəxslərdən nağd qaydada alına bilən malların ödəmə mənbəyində vergiyə cəlb edilməsi;

Sadələşdirilmiş vergi ödəyicilərinin dairəsinin məhdudlaşdırılması;

Banklar və kredit təşkilatları tərəfindən yaradılan ehtiyat fondların vergitutma məqsədləri üçün xərclərə aid edilməsi mexanizminin təkmilləşdirilməsi.

Dəyişikliklər həmçinin vergi inzibatçılığının aşağıdakı istiqamətlərdə təkmilləşdirilməsini əhatə edir:

Uçotdan yayınan vergi ödəyicilərinin vergi nəzarəti tədbirləri ilə məcburi uçota alınması;

Təkrar səyyar vergi yoxlamasının nəticələrinin rəsmiləşdirilməsi zamanı əvvəlki dövrlər üzrə yoxlamaların nəticələri üzrə qərarların qəbulu;

Vergilər Nazirliyinin elektron informasiya sisteminə inteqrasiya edilməsinə imkan verən yeni nəsil nəzarət kassa aparatlarının quraşdırılması;

Elektron qaimə – faktura verməli olan şəxslərin əhatəsinin dəqiqləşdirilməsi – banklar, büdcə təşkilatları, dövlət orqanları, bələdiyyələr, xüsusi notariuslar tərəfindən elektron qaimənin verilməsi istisna edilir.

Vergi güzəştlərinin iqtisadi səmərəsinin yüksəldilməsi də Vergi Məcəlləsində kifayət qədər  öz əksini tapmışdır. Kifayət qədər güzəştlər var, onun səmərəliliyi, təsir dairəsi ilə, demək olar ki, bəziləri heç də maraqlanmırlar. Azadolmalar isə kifayət qədər məbləğ təşkil edir:

İnvestisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ investisiya edilmədikdə, habelə qanunla müəyyən olunmuş qaydada investisiya təşviqi sənədi ləğv edildikdə vergi güzəşti və azad olması tətbiq olunan gəlirlərə və əmlaka görə vergilərin hesablanması;

Vergi ödəyicisinin azı 3 il ərzində mülkiyyətində olan iştirak payının və ya səhmlərin satışına vergi güzəştinin tətbiq edilməsi;

Dövlət əmlakının özəlləşdirilməsi zamanı alıcı kimi çıxış edən şəxsə (investora) əmlak vergisi üzrə müddətli vergi güzəştlərinin verilməsi;

Vergi ödəyicisinin hüquqlarının genişləndirilməsi və sahibkarlığın inkişafının dəstəklənməsində:

Kiçik sahibkarlıq subyektlərinin stimullaşdırılması məqsədi ilə sadələşdirilmiş verginin dərəcəsinin 4 faizdən 2 faizədək endirilməsi;

Kiçik sahibkarlıq subyektlərinin balansında olan əsas

vəsaitlər üzrə surətli amortizasiya normalarının tətbiq edilməsi kimi məsələlər öz əksini tapmışdır.

Cənab Sədr, hörmətli millət vəkilləri, mən razılıq hissi ilə qeyd etmək istəyirəm ki, Milli Məclisdə cənab nazirin iştirakı ilə keçirilən iclasda səslənən fikirlər qısa zaman kəsiyində nazirlik tərəfindən araşdırılmışdır. Biz artıq bir neçə gündür ki, Vergilər Nazirliyinin əməkdaşları ilə bu məsələlər barədə fikir mübadiləsi aparırıq. Hesab edirəm ki, sözün əsl mənasında, Vergi Məcəlləsində edilən dəyişikliklər bütövlükdə Azərbaycan iqtisadiyyatının şəffaflığının artırılması, Azərbaycan iqtisadiyyatının göstəricilərinin beynəlxalq reytinq təşkilatları tərəfindən obyektiv qiymətləndirilməsi, əmək münasibətlərinin bundan sonra da təkmilləşdirilməsi üçün əhəmiyyət kəsb edəcək.

Çıxışımın sonunda onu da qeyd etmək istəyirəm, bayaq hörmətli Sahil müəllim də dedi, yəqin ki, Mikayıl müəllim də bunu deyəcək, pul gəlirlərinin strukturunda bu dəyişikliklər əmək haqqının xüsusi çəkisinin artmasına xeyli müsbət təsir edəcəkdir ki, bu da Azərbaycana digər ölkələrlə müqayisədə daha real, obyektiv nəticələr çıxarmağa əsas verəcəkdir. Mən əminəm ki, bu qanunu konseptual baxımdan birinci oxunuşda qəbul etmək olar. Bu qanunun qəbulu, həqiqətən, Azərbaycan cəmiyyətində çox böyük maraq doğurmuşdur. Bu qanunun qəbulu Azərbaycanın iqtisadi göstəricilərinin, vergi daxilolmalarının gələcəkdə sivil qaydada artması üçün kifayət qədər əsas yaradacaqdır. Ona görə də millət vəkillərindən bu qanun layihəsinə müsbət münasibət bildirmələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. İndi vergilər naziri hörmətli Mikayıl Cabbarova söz verilir.

**M.Cabbarov,** *Azərbaycan Respublikasının vergilər naziri.*

Təşəkkür edirəm. Hörmətli cənab Sədr, hörmətli Milli Məclis üzvləri, artıq qeyd olunduğu kimi, dəyişikliklər paketi özündə bir neçə mühüm istiqaməti əhatə edir. Hörmətli Ziyad müəllim bunları sadaladığından mən təkrara yol vermək istəmirəm. Yanaşmanın əsas fəlsəfəsini bir daha xatırlatmaq istərdim. Burada vergi yükünün artırılması deyil, kölgədə olanların, kölgədə fəaliyyət göstərənlərin vergiyə cəlb edilmə yolu ilə vergitutma bazasının genişləndirilməsi nəzərdə tutulur.

Dövlət başçısının tapşırığına əsasən əmək haqqının üzərinə düşən fiskal yükün azaldılması islahatı təqdim olunan dəyişikliklər sırasında başlıca yer tutur. Mən xüsusilə "kölgə iqtisadiyyatının mövcudluğundan ən çox kim zərər çəkir?" sualına diqqəti cəlb etmək istərdim. Bu, sıravi vətəndaşdır. Məlum olduğu kimi, qeyri-rəsmi əmək haqqı və iş yerləri nəticəsində kölgə iqtisadiyyatında çalışan işçilər faktiki olaraq sosial sığorta və pensiya təminatı sistemindən kənarda qalırlar. İşçi əmək müqaviləsi olmadan çalışdıqda və ya onun aldığı əmək haqqı rəsmi əmək müqaviləsində göstərilmədikdə sosial sığorta haqları toplanılmır, işçilərin fərdi pensiya hesabında əks olunmur. Bu isə işçiləri gələcəkdə layiqli pensiya almaq hüququndan məhrum edir. Bu baxımdan, təklif olunan islahat yüz minlərcə insanın pozulmuş pensiya və sosial müavinət hüquqlarının bərpa edilməsini nəzərdə tutur.

Hörmətli Milli Məclis üzvləri, mən həmçinin bəzi müqayisəli statistikaya diqqətinizi cəlb etmək istərdim. Azərbaycanda əməyin ödənişlərinin ÜDM-də ümumi çəkisi, bir qayda olaraq, 20 faizdən aşağı olduğu halda, qonşu MDB ölkələrində bu göstərici 24–30 faiz arasındadır.

Əhalinin pul gəlirlərinin cəmi 25 faizini əməyin ödənişi təşkil etdiyi halda, rəsmi statistikaya əsasən yenə də qonşu MDB ölkələrində bu rəqəm 40 faizdən 65 faizə qədərdir. Ona görə biz burada xüsusi olaraq vurğulayırıq ki, bu əmək haqları var. Onlar, sadəcə olaraq, kölgədədir və biz bu tədbirlərlə onların kölgədən çıxarılmasını təmin etmək istəyirik.

Nəhayət, Azərbaycanda nağd pul kütləsinin geniş pul kütləsində xüsusi çəkisi 50–55 faiz səviyyəsindədirsə, müqayisə üçün Qazaxıstan, Rusiya, Gürcüstan kimi qonşu ölkələrdə bu, aşağı səviyyədədir. Bu da bizi narahat etməyə bilməz. Statistikaya əsasən 2014–2016-cı illərdə əmək müqaviləsi olmadan işləyənlərin sayı artmışdır. Belə ki, 2015-ci ildə vergi nəzarəti tədbirləri zamanı belə halların sayının 13 faiz, 2016-cı ildə isə 50 faizə yaxın artması müəyyən edilmişdir.

Bilirsiniz ki, möhtərəm cənab Prezidentin 2017-ci il 9 oktyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı" təsdiq edilmişdir. Onun icrası məqsədi ilə Vergilər Nazirliyi tərəfindən nəzarət tədbirləri həyata keçirilir. Bu ilin təkcə on ayında bu sahədə 4100 pozuntu halı aşkar edilmiş, 15 cinayət işi qaldırılmışdır. Lakin görülən tədbirlər sahibkarlarda iqtisadi motivasiyanı yaratmadan istənilən nəticəni vermir, yəni biz yalnız nəzarət və inzibati tədbirlərlə istədiyimizə nail ola bilmirik. Məhz bu səbəbdən əmək haqqı sisteminin islahatının başlıca məqsədi qeyri-rəsmi verilən əmək haqlarını və iş yerlərini iqtisadi motivasiya, iqtisadi stimul yaratmaq yolu ilə kölgədən çıxarmaqdır. İslahat mövcud əmək münasibətlərinin rəsmiləşdirilməsinə, qeyri-neft sektorunun inkişafına əlavə təkan verilməsinə, yeni iş yerlərinin açılması üçün sahib-

karlarda iqtisadi motivasiyanın yaradılmasına yönəlibdir.

Təklif olunan islahat modeli əmək haqqı və iş yerlərini ağartmaqla bərabər, aşağıdakı sosial-iqtisadi problemlərin həllinə də kömək edəcəkdir. Bu, vətəndaşların bank kreditlərinə çıxış imkanlarını genişləndirəcək, beləliklə, bankların kredit aktivinin yüksəlməsinə şərait yaranacaq. Bu isə iqtisadi artıma müsbət təsir göstərəcəkdir. Ağaran əmək haqqı fondu nəticəsində toplanan sosial və işsizlikdən sığorta haqlarının həcmi artacaq. Bu, nəticədə Dövlət Sosial Müdafiə Fondunun dövlət büdcəsinin transfertlərindən asılılığının azalmasına gətirib çıxaracaq, iqtisadiyyatda investisiyaların mühüm mənbəyi hesab olunan uzun pulların yaranmasına şərait yaradacaq, nağdlaşma səviyyəsinin aşağı düşməsinə, bank sistemində qeyri-nağd pul dövriyyəsinin artmasına, bankların resurs bazasının aşağı faizlə kredit vermək imkanlarının genişləndirilməsinə imkan verəcəkdir.

Təklif olunan islahat özəl sektorda sayı 5 mindən yuxarı olan işçilərin əmək haqlarının artırılması anlamına gəlməməlidir. İslahat nəticəsində işçilərin artıq mövcud olan, yəni faktiki aldığı əmək haqları rəsmiləşdiriləcəkdir. Əsas hədəfimiz, qeyd etdiyim kimi, vətəndaşların pensiya və sosial hüquqlarını leqallaşma yolu ilə bərpa etməkdir.

Hörmətli millət vəkilləri, bildiyiniz kimi, əmək haqqı sistemində islahatla yanaşı, ölkədə Vergilər Nazirliyi tərəfindən iqtisadi inkişafın və sosial rifahın dəstəklənməsinə, o cümlədən iqtisadiyyatın şəffaflaşmasına yönəlmiş bir sıra digər tədbirlər də müzakirə üçün təklif olunmuşdur.

Burada artıq qeyd olunduğu kimi, mən xüsusilə sahibkarlığın inkişafının dəstəklənməsi və biznesin əlverişliliyinin artırılması məqsədi ilə sadələşdirilmiş verginin dərəcəsinin 4 faizdən 2 faizə endirilməsi, pərakəndə ticarət və

yaşanan haqsız ödənişlər üzrə müddətli vergi güzəştlərinin verilməsi, gəlir və xərcin uçotunu aparan sahibkarların divident gəlirlərinin vergidən azad olunması kimi yenilikləri də qeyd etmək istərdim.

Çıxışıma yekun vuraraq ümid edirəm ki, 2019-cu il üçün Vergi Məcəlləsinə və digər qanunlara təklif olunan dəyişikliklər Milli Məclis tərəfindən dəstəklənəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinin birinci oxunuşudur. Xahiş edirəm, müzakirəyə yazılanlar konseptual yanaşsınlar. Buyurun, Fazil Mustafa.

**F.Mustafa.** Təşəkkür edirəm, Oqtay müəllim. Hörmətli Milli Məclis üzvləri, hörmətli hökumət üzvləri, hesab edirəm ki, bu gün biz çox ciddi sənədlərin müzakirəsinin müəyyən mərhələsini yekunlaşdırmaq üzrəyik. Amma burada vacib məsələlərdən biri vergi siyasəti ilə bağlı məsələdir. Açıq etiraf edim ki, bu qanun layihəsi kifayət qədər ciddi hazırlanmışdır və demək olar ki, ölkədə sahibkarlığın inkişafını stimullaşdıran, gələcəkdə əmək pensiyaları ilə bağlı problemlərə aydınlıq gətirən bir sənəddir. Ümumiyyətlə, vergi siyasəti Azərbaycanda son vaxtlarda mahiyyətcə nəyi dəyişibdir? Artıq Vergilər Nazirliyi cəmiyyətdə bir cəza orqanı kimi tanınmaqdan çıxmaq üzrədir, stimullaşdırıcı, iqtisadi, həqiqətən də, motivasiyanın artmasına səbəb ola biləcək bir quruma çevrilməkdədir. Sanki əvvəllər istehsal, mənfəət, gəlir heç kimi maraqlandırmırdı, amma yığılan vəsait büdcəyə daxil olmalıdır deyə, sahibkarın hansısa formada əzilməsi, sıradan çıxması, öz istehsalını dayandırması, özünün hansısa bir satış müəssisəsini bağlaması kimsənin vecinə deyildi. İndi isə sistemdə ciddi dəyişikliklər baş verir və mən hesab edirəm ki, bu dəyişiklikləri xüsusilə iqtisadi sahədə

olan subyektlər dəstəkləyirlər. Bunu daha da genişləndirmək lazımdır. Çünki diqqət edirsinizsə, başqa ölkələrdə heç vaxt, artıq bizdə də olduğu kimi, insanlar poqonuna, puluna, vəzifəsinə görə öyünmürlər. “Mən filan yerdə işləyirəm, filan çəkiyə sahibəm” demirlər. Deyirlər ki, “mən bu ölkədə vergi ödəyicisiyəm”. Yəni vergi ödəyicisi olmaqdan şərəfli bir iş yoxdur. Vergi ödəyicisi insanın dövlətə münasibətinin bir göstəricisidir, ləyaqətin göstəricisidir. Mən bu ölkədə vergi ödəyicisiyəmsə, demək, poqondan da, puldan da, vəzifədən də üstün adamam. Biz də Azərbaycanı bu cür səviyyəli bir ölkəyə çevirməliyik. Onda bütün bu sahələrdə stimullaşdırıcı addımların atılması daha çox diqqət cəlb edəcək və mümkün olacaqdır. O baxımdan mən bugünkü vergi siyasətində atılan addımları dəstəkləyirəm və bu qanun layihəsinə səs verəcəyəm.

Amma məni maraqlandıran məsələ odur ki, xüsusilə də kənd təsərrüfatı sahəsində çalışan işçilərin bu qanunda olan dəyişikliklərlə bağlı bizə müraciəti var. Bildiyiniz kimi, həmin dəyişikliklərdə müəyyən vergi ödəyicisi olmayan və nağd qaydada məhsul sata bilən fiziki şəxslərin gəlirlərindən 2 faiz vergi tutulması təklif olunur. Bildiyiniz kimi, “Nağdsız hesablaşmalar haqqında” Qanunun 3.5-ci maddəsi vergi ödəyicisi olmayan və nağd qaydada məhsul sata bilən fiziki şəxslərin əhatə dairəsini müəyyənləşdirib. Həmin subyektlərdən biri də kənd təsərrüfatı məhsulları satıcılarıdır. Onların əsas problemi nədədir? Bu sahə stimullaşdırılmadığına görə məhsullarını ucuz qiymətə topdan satıcıya verirlər. Onlar məhsulu satırlar və alıcılar da üstünə müəyyən qiymət qoyaraq, təbii ki, qazanc əldə edirlər. Kəndçi öz məhsulundan arzuladığı, istədiyi səviyyədə gəlir götürə bilmir. İndi biz bu sahəni stimullaşdırmalıyıq ki, kəndçinin məhsulunu özünün də

satmaq imkanı varsa, bundan məhrum olmasın. Bunu genişləndirmək lazımdır. Çünki bu olarsa, öz məhsulunu daha baha qiymətə satıb gəlir əldə edə bilər. Amma maraqlıdır ki, 2 faiz vergi necə müəyyən olunacaq? Bu 2 faiz vergi kəndçidən, ya topdan satıcıdan alınacaq? Məncə, bu fərqi göstərmək, bildirmək lazımdır ki, kəndçidən vergi tutulması bir az ədalətli görünmür və bu imkanı ona tanımaq vacibdir.

Digər tərəfdən, bildiyiniz kimi, bizdə bir sıra yerlər var ki, orada fermerdən məhsulu topdan satıcılar alır və bunu da pərakəndə satış yerlərində başqa satıcılara satırlar. İndi topdan satıcıdan da, ardınca pərakəndə satış yerlərində bu satışı həyata keçirəndən də 2 faiz vergi tutulmalıdır. Bu nə dərəcədə ədalətli sayıla bilər? Bu məsələyə, məncə, bir az aydınlıq gətirilməlidir. Çünki vergini bir dəfə tətbiq etmək daha məqsədəuyğundur və bunun topdan satıcıdan alınması daha düzgün olar ki, bu insanlar ən azı müəyyən gəlirlərdən məhrum olmasınlar.

Digər bir məsələ mülki hüquq xarakterli müqavilələrlə çalışan şəxslərin 25 faizlə sosial sığortaya cəlb olunması ilə bağlıdır. Aydın olmayan tərəf odur ki, bunun fərdi sahibkarlara da şamil edilməsi nəzərdə tutulub, ya tutulmayıb? Çünki fərdi sahibkarların bu qədər yükün altına girməsi bir az çətin olacaqdır. Buna da aydınlıq gətirilməsi, məncə, doğru olardı.

Amma ümumilikdə, mən hesab edirəm ki, bu gün Milli Məclis tərəfindən də aparılan vergi islahatları həm qanunvericilik bazasında, həm də başqa sahələrdə imkanlarımızla dəstəklənməlidir. Artıq bildiyiniz kimi, ölkədə 80 faiz investisiya qoyuluşu dövlətə aiddir. Biznesin payı 20 faizdir. Biz gələcəkdə ölkənin iqtisadiyyatını 20 faizlə inkişaf etdirə bilmərik. Bizim büdcədə olan gəlirlərin əsas 75 faizi 3

mənbədən asılıdır. Bu mənbələrdən birində dəyişiklik olanda... Bu gün neftin qiymətinin enməsi hamımızı həyəcanlandırır. İndi bu, 50 dollara ensə, biz büdcədə 60 dollar müəyyən etmişik, artıq böyük problemlər yaşayacağıq. Ona görə də biz mənbələrin sayını artırmağa çalışmalıyıq və bu istiqamətdə vergi siyasəti doğru aparılarsa, daha böyük işlər, uğurlar əldə etmək mümkün olacaqdır. O baxımdan mən hesab edirəm ki, bugünkü dəyişiklikləri sistemli aparmaq və sahibkarların, xüsusilə də istehsalla məşğul olan insanların maraqlarını artırmaq lazımdır.

İndi diqqət edirsinizsə, Bakıda müəssisələrin hamısı ancaq satış müəssisələridir, hamısı ancaq iri marketlərdir, hamısı ancaq satış üçün nəzərdə tutulub. İstehsal üçün nəzərdə tutulan yoxdur. Büdcəyə diqqət edirsinizsə, regionlardan gələn gəlirlərə baxın, 97 faiz yenə Bakıdadır, 3 faiz regionların payına düşür. Əgər biz 25 ildə regionları 3 faizdən qaldıra bilmiriksə, bu hansısa müəyyən bir natamamlığın göstəricisidir. Biz bunu əvvəl-axır etməliyik. Azərbaycanda regiona dönüş siyasəti həyata keçirilməlidir, artıq bir proqram tərtib olunmalıdır. Region elə stimullaşdırılmalıdır ki, vətəndaş ora aclığa, səfalətə görə qayıtmasın, Bakıda, gecəqonduda ağır həyat keçirməkdən imtina edib ora gedə bilsin. Bilsin ki, orada yaşamaq, işləmək daha çox pul gətirəcəkdir. Biz bundan imtinanı həyata keçirə bilməsək, həm Bakını yüklənmiş şəhər kimi saxlayacağıq, həm də regionların inkişafına nail ola bilməyəcəyik.

Mən keçən dəfə də qeyd etdim, baxın, Bakıda gədəbəylilər, lənkəranlılar, leriklilər məhəlləsi var. Bakının məhəllələri artıq bölgələrdən gələn insanlarla doludur. Bağların hamısında cənub bölgəsindən gələn insanlar bağbanlıq edir, böyük əksəriyyət isə evini atıb gəlibdir. Bunun qarşısını almaq lazımdır. Biz bölgələrin boşalması siyasətindən imtina

etməliyik. Bunu da vergi ilə stimullaşdırmaq olduqca vacibdir və bunu etməsək, yaxın gələcəkdə demoqrafik problemlərin çox böyük sıxıntısı altında əziləcəyik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən xahiş etdim ki, konseptual yanaşaq. Görürəm, elə bir az da çox gedirik. Əgər etiraz etmirsinizsə, 8 məsələmiz qalıb, 5 dəqiqəyə keçək.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyursun Vahid Əhmədov.

**V.Əhmədov.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, hörmətli hökumət üzvləri! Bu gün Vergi Məcəlləsinə edilən dəyişikliklərlə bağlı biz komitədə cənab nazirlə birgə 3 saata yaxın müzakirə aparmışıq. Qaldırdığımız bütün məsələlərə cənab nazir tərəfindən dəqiq cavablar almışıq. Hətta ilk dəfə olaraq cənab nazir suallarımıza cavabları bizə yazılı şəkildə, ətraflı göndərmişdi. Buna görə də ilk olaraq cənab nazirə öz dərin minnətdarlığımı bildirirəm.

Əlbəttə, Vergi Məcəlləsinə edilən dəyişikliklər çox ciddi dəyişikliklərdir. Dövlət başçısının qeyd etdiyi kimi, bu dəyişikliklər Azərbaycanda kölgə iqtisadiyyatının aradan qaldırılması, korrupsiyanın, rüşvətxorluğun qarşısının alınması, şəffaflığın təmin edilməsi üçün atılan addımlardan biridir.

Mən belə hesab edirəm ki, vergi sistemində edilən dəyişikliklər sahibkarlığın inkişafı üçün çox münbit zəmin yaradır və bu proses, bu islahatlar gələcəkdə də davam edərsə, Azərbaycanda vergidənyayınma halları çox az olacaq və insanlar vergini lazımi səviyyədə vaxtında ödəcəyəklər.

Vergi sistemində edilən dəyişikliklərdə ən çox diqqət çəkən məsələ, əlbəttə, gəlir vergisinin tutulmasıdır. Yəni qeyri-neft sektorunda çalışan işçilərdən 8 min manata qədər olan gəlir vergisinin tutulmamasıdır. Amma burada bir məsələ

diqqəti cəlb edir, biz bunu komitənin iclasında da qaldırdıq. Cənab nazir qeyd etdi ki, bununla əlaqədar Azərbaycan hökumətinin yəqin bir qərarı olacaq. Qeyri-neft sektoru var, bir də qeyri-dövlət sektoru var. Bu sektorları deyəndə nələr başa düşülür? Hansı təşkilatlar bura daxildir, hansılar deyil? Elə səhmdar cəmiyyətləri, şirkətlər var ki, onların səhmlərinin müəyyən hissəsi dövlətdədir, müəyyən hissəsi isə insanların əlindədir. Ona görə də mən belə hesab edirəm ki, ümumiyyətlə, bu anlayışın izahı verilməlidir və qeyri-dövlət sektorunun da hansı sahəyə aid edilməsi, bunun sərhəddi bilinməlidir. Çünki bu çox vacib məsələdir. Bununla əlaqədar bizim müəyyən suallarımız var.

İkinci ən ciddi məsələ, – mən komitənin iclasında da buna toxundum, – sənədləşdirmə məsələsidir. Çünki Vergi Məcəlləsində dəyişikliklər ilə əlaqədar ciddi sanksiyalar nəzərdə tutulur və bu, ciddi sanksiyalar da sənədləşdirmənin aparılmaması ilə əlaqədardır. Biz bilirik, Azərbaycanda elə satış mərkəzləri var ki, sənəd vermirlər. Lakin sahibkarlar işin getməsi üçün həmin satış mərkəzlərinə müəyyən məhsulları, komponentləri almağa məcburdurlar ki, iş dayanmasın. Mən belə hesab edirəm ki, o sanksiyaya, yəni 58.8.2-ci maddəyə müəyyən qədər baxmaq olar. Mən ilk olaraq Vergilər Nazirliyinə tövsiyə edərdim ki, həmin satış mərkəzlərində sənədləşdirmə prosesinin axıra çatdırılmasına kömək etsinlər ki, sahibkarlar bu məsələdə əziyyət çəkməsinlər, yoxsa sənədsiz iş aparan sahibkar sabah cərimələr qarşısında, mən deyərdim ki, çox aciz qala bilər və cərimələr ona müəyyən qədər mənfi təsir edə bilər.

Üçüncü ciddi məsələyə də biz komitədə toxunduq. Cənab nazir də buna müəyyən aydınlıq gətirdi. Bu, əlavə dəyər vergisi ilə əlaqədardır. Düzdür, Azərbaycanda 2019-cu il yanvarın 1-də bu qanun qəbul ediləndən sonra biz ticarət

obyektlərinə müəyyən əlavə dəyər vergisinin qaytarılması prinsipini həyata keçirəcəyik. Amma ümumi götürəndə biz belə hesab edirik ki, bütün dünyada olduğu kimi, birincisi, əlavə dəyər vergisinin faizi çox yüksəkdir, o faizə baxmaq lazımdır, ikincisi, əlavə dəyər vergisinin diferensiallaşdırılmasını həll etmək lazımdır. Niyə biz Azərbaycana gətirilən məhsulların hamısına 18 faiz əlavə dəyər vergisi tətbiq edirik? Mən komitədə də qeyd etdim, məsələn, elə məhsullar var ki, prestijli məhsullardır, insanlar 10 ildə, 20 ildə bir dəfə istifadə edirlər. Amma elə məhsullar da var ki, misal üçün, geyim məhsulları – insanlar geyim məhsullarından, demək olar ki, ayda 1 dəfə, 2 ayda bir dəfə istifadə edirlər. Ona görə mən hesab edirəm ki, gələcəkdə Vergilər Nazirliyi əlavə dəyər vergisinin diferensiallaşdırılması məsələsini beynəlxalq aləmdə olan təcrübəyə baxıb həll etməlidir. Bu dəyişikliklər çox vacibdir. Nazirin atdığı bu addımı mən yüksək qiymətləndirirəm və belə hesab edirəm ki, bu dəyişikliklər Azərbaycan iqtisadiyyatının inkişafına müsbət təsir göstərəcəkdir. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli.

**Ə.Məsimli.** Çox sağ olun, cənab Sədr. Yəqin cənab Sədrin yadındadır, təqribən 10 il bundan əvvəl Azərbaycan Milli Məclisi Sədrinin imzası ilə aidiyyəti orqanlara vergi sisteminin təkmilləşdirilməsi istiqamətində bir zərf göndərilmişdi. Həmin zərfə iqtisadi blokda olan bütün nazirliklər, baş idarələr müsbət cavab vermişdi. Onun ideyası ondan ibarət idi ki, vergi sisteminin təkcə fiskal funksiyasını deyil, onun stimullaşdırıcı, istiqamətləndirici və yenidən bölüşdürücü funksiyalarını da hərəkətə gətirmək lazımdır. Düzdür, həmin təkliflərimiz ilk vaxtlarda büdcəyə daxil olan vəsaiti azaldacaqdı, amma sonradan dəfələrlə artıq vəsait gətirəcəkdi. Bu təkliflərə müsbət cavab verilməsinə baxmayaraq, bir-

iki məqam tətbiq olundu, amma yerdə qalan məqamlar tətbiq olunmadı. Yaxşı haldır ki, indi vergilər nazirinin irəli sürdüyü həmin təkliflər məhz konseptual nöqteyi-nəzərdən, elə bil, o təkliflərin bir növ davamıdır. Yəni söhbət vergi sisteminə innovativ, şəffaf bir xidmət növü kimi baxılmasından gedir. Verginin bütün funksiyalarının hərəkətə gətirilməsi həm sosial-iqtisadi inkişafın sürətlənməsinə təkan verəcək, həm də büdcəyə əlavə vəsaitin daxil olmasına kömək edəcəkdir. Bu nöqteyi-nəzərdən mən irəli sürülən təklifləri müsbət qiymətləndirirəm.

Qeyd etmək lazımdır, Azərbaycanda vergi sisteminə diqqət edəndə baxıb görəcəyik ki, burada bir meyl, yəni vergi yükünün istehsal sahəsindən istehlak sahəsinə keçirilməsi meyili özünü göstərir. Bu, bütün dünyada belədir və hesab edirəm ki, vacib bir məqamdır.

İkinci məqam ondan ibarətdir ki, verginin stimullaşdırıcı rolunun artırılması kölgə iqtisadiyyatının, onun mümkün olan hissələrinin vergiyə cəlb edilməsinə, elə bil, çox böyük bir şans yaradılır. Bu da əhəmiyyət kəsb edir. Əgər biz vergiyə diqqətlə baxsaq, görəcəyik ki, əlavə dəyər vergisini çıxmaq şərti ilə Azərbaycanda digər vergi dərəcələrini optimal hesab etmək olar. Başqa ölkələrlə, inkişaf etmiş ölkələrlə, inkişaf etməkdə olan ölkələrlə, MDB ölkələri ilə müqayisə etsək, bu dediyimiz fikri əsaslandırmaq olar ki, əlavə dəyər vergisini çıxmaq şərti ilə qalanlarını optimal hesab etmək olar.

Beynəlxalq praktikada əlavə dəyər vergisi 14–15 faizdən yuxarı qalxanda onun iqtisadiyyata ziyanı xeyrindən çox olur. Ona görə də hesab edirəm ki, vergi sisteminə konseptual yanaşanda mütləq və mütləq əlavə dəyər vergisinin diferensiallaşması və Azərbaycan reallıqlarında ondan sui-istifadə hallarının qarşısının alınması mexanizmini tətbiq

etmək, mütləq həyata keçirmək lazımdır. Çünki əlavə dəyər vergisinin diferensiallaşdırılması stimullaşdırıcı xarakter daşıyır. Bu, kiçik sahibkarlığın inkişafının sürətlənməsinə imkan verir, kiçik müəssisələr sürətlə böyüməyə başlayır və sair. Beynəlxalq praktikadan bunların hamısı aydındır. Hesab edirəm ki, belə bir deferensiallaşmanın Azərbaycanda da həyata keçirilməsi çox vacibdir. Bu, beynəlxalq praktikada uşaq qidalarına, məktəb ləvazimatına, dərman vasitələrinə, əlillər üçün tibbi məhsullara, avadanlığa, kitablara və sairəyə tətbiq olunur. Keçən dəfə vergilər naziri haqlı olaraq bu məsələyə münasibət bildirdi. Məsələn, biz tibdə bunun tətbiqi ilə bağlı məqamlarla razıyıq. Amma hesab edirəm ki, hər halda bunu innovasiya olan tərəflərə və bir də uşaqlarla bağlı məqamlara tətbiq etmək olar.

Qeyd etmək istədiyim başqa bir məqam ondan ibarətdir ki, Azərbaycanda bütövlükdə sahibkarlığın inkişafına yönəldilən tədbirlərdə vergilərin faizinin yüksək olması əsas problem deyil. Əsas problem bilavasitə inhisarçılıq, məmur sahibkarlığı, məmur himayədarlığı, sahibkarlığın müxtəlif dövlət qurumlarının təzyiqi altında işləməyə məcbur olması və bir sıra hallarda məmur özbaşınalığıdır. Axırıncı sadaladıqlarım Vergilər Nazirliyindən asılı deyil. Ona görə də Vergilər Nazirliyinə mütləq hökumətin digər strukturları kömək etməlidir ki, qeyd etdiyim çatışmazlıqlar aradan qalxsın. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Elmira Axundova.

**E.Axundova.** Çox sağ olun. Biz bu gün çox mühüm sənədə səs veririk. Söhbət Vergi Məcəlləsinə təklif edilən dəyişikliklərdən gedir. Əslində, bu təkliflər Vergi Məcəlləsini əsaslı surətdə kökündən dəyişdirir, onun fəlsəfəsini kölgə iqtisadiyyatının azaldılmasına, vergi üzrə qanunvericilik bazasının təkmilləşdirilməsinə və nəticədə iqtisadiyyatın saf-

laşdırılmasına yönəldir. Fikrimcə, bu sənəd və edilən dəyişikliklər Azərbaycanın vergi sistemində gedən mütərəqqi islahatlara mühüm dəstək kimi qiymətləndirilməlidir və əlbəttə ki, biz bu sənədə səs verəcəyik.

Yəqin ki, yaxın aylarda Vergi Məcəlləsinə yeni mühüm dəyişikliklər təklif ediləcək. Bu, labüddür və Milli Məclisə yenə daxil olacaqdır. Belə olan halda, Vergi Məcəlləsinin yeni redaksiyada, yeni variantda işlənməsinə, məncə, ehtiyac vardır. Çünki hazırda dəyişikliklər əsas mətndən daha çoxdur. Çox müsbət haldır ki, mühüm dəyişikliklərin, deyərdim ki, bu fundamental dəyişikliklərin təqdimatını özümüz deyil, bu sənədin müəllifləri, ilk növbədə vergilər naziri hörmətli Mikayıl Cabbarov edir. Çünki belə olan halda, biz – millət vəkilləri ona müxtəlif suallar, tövsiyələr vermək kimi fürsət əldə edirik.

Konkret qanuna gəlincə, mən ilk növbədə qanunun dilindən danışmaq istərdim. Cəmi bir bəndi – 13.2.78-ci maddəni oxuyuram: “KOB klaster şirkəti – müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş meyarlara cavab verən və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) ilə razılaşdırmaqla mikro, kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) KOB klaster şirkətinin şəhadətnaməsi verdiyi hüquqi şəxs”. Eşitdiyiniz kimi, burada bir cümlədə 4 dəfə “müəyyən” sözü təkrar olunur və cümlə, ümumiyyətlə, çətinliklə qavranılır. Belə misalları artırmaq olar. Ona görə Milli Məclisdə əvvəlcə də səslənən bu fikri dəstəkləyirəm ki, bu və ya digər mühüm qanun layihələrini Milli Məclisdə mütləq dil baxımından nəzərdən keçirməliyik və müvafiq düzəlişlər etməliyik.

Bir məsələyə də toxunmaq istərdim. Hörmətli Mikayıl

müəllim, mədəniyyət sahəsində, məsələn, milli kinomuzda hansısa filmin çəkilməsinə kömək edən, ya da rayonumuzda qəzalı vəziyyətdə olan, bilirsiniz ki, indi çoxsaylı mədəni və arxeoloji obyektlər var. Bax, onun bərpasına vəsait ayıran, hansısa tanınmış ədibin kitablarını çap edən insanlara, bu nəcib işləri edən fiziki və hüquqi şəxslərə hansı isə formada, məncə, vergi güzəştləri edilməlidir. Xeyriyyəçilik və mesenatlıq sahələri ilə fəal məşğul olan insanlarımız var. Amma onlar artıq kölgədədir. Hətta qorxurlar, deyirlər ki, bizim adlarımızı deməyin. Ona görə, məncə, belə insanlara, belə şirkətlərə hansı isə formada vergi güzəştləri etməliyik. Çünki hazırda Azərbaycanda bu istiqamətdə belə işlər çox zəif gedir.

Ümumiyyətlə, mən vergilər nazirinə və onun yaradıcı komandasına uğurlar diləyirəm. İstərdim ki, burada yazılan mütərəqqi yeniliklər kağızda qalmasın və hamısı reallaşsın. Diqqətinizə görə sağ olun.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini* ***Ziyafət Əsgərov*** *sədrlik edir*

**Sədrlik edən.** Çingiz Qənizadə.

**Ç.Qənizadə.** Təşəkkür edirəm. Hörmətli həmkarlar, qeyd etmək istəyirəm ki, uzun illər hamımızı narahat edən vergi orqanlarında baş verən xoşagəlməz hallar artıq son 1 ildir aradan qaldırılmışdır. Təbii ki, biz vergi orqanlarının yeni rəhbərliyinin islahatlara addım atacağını çoxdan gözləyirdik və bu istiqamətdə aparılan işlərin də şahidiyik.

Mən ilk öncə insanlarda vergi orqanına münasibətin müsbət mənada dəyişməsinə şərait yaratdığına görə bu qurumun rəhbərliyinə təşəkkür edirəm. Bayaq qeyd olun-

duğu kimi, insanlar sanki bir cəza orqanından qurtararaq normal, sivil bir orqanla əməkdaşlığa başlayıblar. Ümid edirəm ki, bu islahatlar davam edəcək. Azərbaycan vətəndaşları bilməlidirlər ki, vergi ödəmək özü bir mədəniyyətdir, amma bu mədəniyyət vergi ədalətli olduğu halda, insanlara zorakılıqla, hədə-qorxu ilə deyil, sivil, maarifləndirmə yolu ilə izah edilsə, onun nəticəsi müsbət olacaq.

Mən müzakirəyə çıxarılan bu qanun layihəsini, təbii ki, təqdirəlayiq hesab edirəm. Ötən komitə iclasında da qeyd etdim ki, biz Vergilər Nazirliyindən vergi yükünün azaldılması ilə bağlı atılacaq addımlara dəstək olacağıq. Bugünkü layihə həm şəffaflığı, həm də vergi yükünün azaldılması üçün insanlara, sahibkarlara olan müəyyən güzəştləri özündə ehtiva edir. Sadəcə bir şeyi deyim və sonda da bir təklifim olacaq. Mənim əsas çıxışım bu qanun layihəsini dəstəkləmək məqsədi ilədir. Məsələn, 220-ci maddədə sadələşdirilmiş verginin dərəcəsində müəyyən xidmətlərə görə (218-ci maddədə göstərilən xidmətlərə görə), fəaliyyətə görə 4 faizlik vergi həcmi, sadələşdirilmiş vergi həcmi nəzərdə tutulurdu və insanlarda ilk baxışda belə bir fikir formalaşırdı ki, bu gəlirdən 4 faiz verirsən və bu çox normaldır, amma əslində, bu, belə deyildi, ümumi dövriyyənin 4 faizi idi. Bu isə sahibkarın gəlirinin təxminən bəzi hallarda 30–40 faizinə qədər həddə idi. Amma indi bunun 2 faizə endirilməsi, belə hesab edirəm ki, sahibkarlara da vergi ödəməyə stimul verəcək və eyni zamanda, yeni iş yerlərinin açılmasına gətirib çıxaracaq.

Mən ötən il hökumətin hesabatında, – o zaman keçmiş nazir də bu zalda idi, – vergi orqanlarının işini tənqid edərkən dedim ki, nəyə görə biz Gürcüstandakı vergi sistemini Azərbaycanda tətbiq edə bilmirik? Bağlanan ticarət müəssisələrini, obyektləri gördükcə təklif etdim ki,

bəlkə daha azad vergi sistemi ilə daha çox iş yerinin açılmasına xidmət edən müddəaları özündə əks etdirən qanun layihəsinə baxaq? Bu artıq reallaşır və belə hesab edirəm ki, buna görə hamımız bu cür təklifləri, islahatları dəstəkləməliyik.

Mikayıl müəllimə bir sualım var. Mikayıl müəllim, Vergi Məcəlləsinin 13.2.7-ci maddəsində vergi ödəyicisinin ailə üzvləri sırasında valideynlər, ögey bacı, qardaşlar, baldız, qayın, nə bilim, digər belə qohumların hamısı ailə üzvləri sırasına aid edilib. Nəyə görə nəvələr ailə üzvləri sırasında öz əksini tapmayıblar? Biz Azərbaycanda yaşayırıq, Şərq ölkəsiyik və ailəyə, uşağa, övlada, nəvəyə münasibət Avropadan tamamilə fərqlidir və bəzən illərlə babayla, nənəylə birgə yaşayan nəvələr bu ailə üzvləri sırasında qeyd olunmurlar. Hörmətli Mikayıl müəllim, mən istərdim ki, gələcəkdə bu qanun layihəsinin növbəti mərhələsində müzakirələr zamanı bu məsələyə ya aydınlıq gətirilsin, ya da elə nəvələr də ailə üzvləri sırasına salınmaqla bu boşluq doldurulsun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc.

**Z.Oruc.** Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, hörmətli hökumət üzvləri, hörmətli həmkarlar! Mən birinci növbədə hökumət üzvlərinin son günlərdə bizim televiziya ekranlarında verdikləri müsahibələri təqdir etmək istəyirəm. Bu, çox yaxşı bir hadisədir, çünki hökumət yürütdüyü siyasəti birinci özü şərh etməli, izah etməlidir. Əks halda, bəzən qeyri-hökumət təşkilatlarının üzvləri yerdə bu məsələləri şərh etmiş olurlar. Gəlin, razılaşaq ki, bu, cəmiyyətdə, konkret sahəvi qurumlarda, insanlarda o qədər də bitkin bir fikir formalaşdırmır.

Mən hörmətli vergilər naziri Mikayıl Cabbarovun dediyi məsələ ilə bağlı “Real” televiziyasında Mirşahin

Ağayevə verdiyi müsahibəsinə qulaq asırdım. Orada ayrıca bir fikri xüsusi vurğulamaq istəyirəm. Mikayıl müəllim qeyd edirdi ki, vergilərin toplanması, yəni artırılması öz-özlüyündə başlıca məqsəd deyil. Bu, çox dərin və uğurla deyilmiş bir fikirdir. Çünki əgər onun tərkibində xırda sahibkarlıq, kiçik sahibkarlıq xüsusi bir çəkiyə malik olmayacaqsa, – xatırladım ki, bu rəqəm bizdə qat-qat aşağıdır, – orta sahibkarlıq xüsusi bir çəkiyə gəlib çatmayacaqsa, şişirdilmiş öhdəliklər iqtisadiyyatı və ya sahibkarlığı bəzən əldən salır. Səhv etmirəmsə, müşavirədə də buna bənzər bir fikir səslənmişdi. Ona görə də vergi fəlsəfəsinin, ümumiyyətlə, dəyişməsi sahibkarlıq, – bəli, birinci sahib olsun ki, o, sahibkara çevrilsin, – düşüncəsinin, nəhayət, cəmiyyətdə bərqərar olmasına kömək edə bilər.

Bu dəyişikliklər, əlbəttə, iqtisadiyyatda leqallaşmanın getməsini təmin etmək üçündür. Burada Gürcüstan nümunəsindən danışıldı. Bilirsiniz ki, gənc gürcü demokratiyasının keçmiş parlaq simalarından biri rəhmətlik Kaxa Bendukidze idi. Onun bir çox müsahibələrini, yazılarını, kitablarını diqqətlə oxumuşam. K.Bendukidze vergi məsələsi ilə bağlı qeyd edir ki, Saakaşvili onu iqtisadi inkişaf naziri təyin edəndə o dərk edirdi ki, bu qədər vergi növü iqtisadiyyatı taqətdən salır və korrupsiya üçün yem yaradır. Birinci növbədə bu qədər ödənişlərin sayını azaltmaq lazımdır və əsasən üç növ verginin saxlanması fikrinin üzərində qətiləşib. Mən düşünmürəm ki, bir ölkənin modeli başqası üçün də keçərli ola bilər. Amma hər halda yaxşı təcrübələr öyrənilməlidir və bizdə də buna baxılmasına çox ehtiyac var. Məsələn, mən sadələşdirilmiş vergi ilə bağlı çoxlu rəy oxudum. Əminəm ki, hər bir nazirlik atdığı addımlara cəmiyyətdə olan reaksiyaları izləyir. Tutaq ki, vergilər hansı isə bir dövriyyələr əvəzinə xalis

gəlirdən toplansın. Qeyd olunurdu ki, dövriyyələri sadələşdirlmiş vergiyə salmaq üçün mütləq ümumi dövriyyələri parçalara bölürlər, hissələrə ayırırlar. Bu, məsələlərdən də qaçmağın ən yaxşı yolu ola bilər.

İkincisi, biz kölgə iqtisadiyyatını gün işığına çıxarmaq üçün səbəblərin üzərində dəqiq dayanmalıyıq. Niyə belədir? Çünki birinci növbədə əmək qabiliyyətli əhalimizin nisbətinə uyğun olmayan təklif bazarı var, qeyri-sabit xarakter daşıyan sahibkarlıq mühitimiz var və ədalətli rəqabət mühitini də tam bərqərar edə bilməmişik. Vətəndaşın əmək hüquqlarını qoruyacaq mexanizmlər də təkmil deyil. Belə halda vətəndaş 25 il sonra alacağı pensiya və onunla bağlı digər ödənişlər əvəzinə bugünkü qeyri-leqal formada müqaviləsiz işə başlamağa daha üstünlük verir. Ona görə də mən hesab edirəm ki, qarşıdakı dövrlərdə bu məsələlərdə daha ciddi dəyişikliklər olacaq. Məsələn, işəgötürən üçün vergi yükü, o cümlədən sosial sığorta yükü azaldılır. Amma ümumən, məncə, gələcəkdə bunun daha da aşağı salınması üçün yollar var. Deyildiyi kimi, ilk dövrdə gəlirlər azala bilər. Amma əminəm ki, bir neçə ildən sonra, nəhayət, iqtisadiyyat şaxələndikcə, bunlar öz yerini tapacaqdır.

Birbaşa aid olmasa da, biz aksizlərlə bağlı ayrıca məsələni müzakirə edəcəyikmi, bilmirəm, gələn ildən hökumət avtomobil üzrə aksizləri, aksiz vergilərini artırır və ƏDV, gömrük rüsumları isə yerində qalır. Motoru 2 litr motor həcmində olan avtomobillərdə 400 manat 600 manat olur, 2,2 litr üçün 1000 manat 1600 manat olur, 2,5 litr üçün 1900 manat 3100 manat olur, ən nəhayət də 53 min 600 manat 77 min olur və sair. Yəni xeyli böyük, 21 minlik fərq var. İndi ƏDV 18 faiz, üstəgəl 15 faiz gömrük rüsumunu da əlavə edəndə, görürsünüz, böyük bir rəqəm

yaranır. Əminəm ki, buna görə də biz yerli avtomobil sənayesini hələ də mükəmməl qura bilməmişik. “Volkswagen” gəlib burada özünün filialını açmır.

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Musa Quliyev.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, mən də öz çıxışıma hörmətli vergilər naziri Mikayıl Cabbarova və onun komandasına minnətdarlıq, təşəkkür sözləri ilə başlamaq istəyirəm. Bu dəyişikliklər, doğrudan da, həm Azərbaycanın iqtisadiyyatına, həm vergi sisteminə, həm də əmək münasibətlərinə yeni bir baxışın nümunəsidir. Hesab edirəm ki, bu dəyişikliklərin qəbul olunması təkcə vergi yığanla vergi verən arasındakı münasibətlərin daha humanist bir müstəviyə çıxmasına deyil, həm də əmək münasibətlərinin leqallaşmasına və əmək müqavilələrinin bağlanmasına stimullaşdırıcı bir şərait yaradacaqdır. Heç şübhəsiz ki, buradakı dəyişikliklərin çox böyük əksəriyyəti pozitiv dəyişikliklərdir, eyni zamanda, dövlət büdcəsinin vergi yolu ilə doldurulmasına, sahibkarın öz fəaliyyətini daha leqal və azad şəkildə aparmasına, münasibətlərin daha sivil qurulmasına xidmət edəcəkdir.

Mən burada bir neçə təkliflə çıxış etmək istəyirəm. Bu pozitiv söylədiyim fikirlərlə yanaşı, düşünürəm ki, burada bir neçə dəyişikliyin edilməsi yaxşı olardı. Birinci növbədə 102.2.5-ci maddədə vergidən azad olunanlar sırasına döyüşçülərin, yəni həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadları və övladları əlavə

olunubdur. Bu, çox yaxşı bir fikirdir. Amma burada "döyüşçü" sözü, məncə, dəyişilməlidir. Ya "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş şəxslərin", ya da "hərbi xidmət vəzifəsini yerinə yetirərkən həlak olmuş şəxslərin" sözləri ilə əvəz olunsa, daha uyğun olardı. Çünki döyüş yalnız müharibə zamanında olur. Amma müharibə olmadığı zamanda, yəni biz rəsmi müharibə elan etməmişiksə, bu insanlar döyüşçü deyillər, hərbi xidmət vəzifəsini yerinə yetirən şəxslərdir.

Digər bir məsələ – biz burada hörmətli Cavid müəllimlə, Ziyad müəllimlə bir balaca müzakirə apardıq. 7 il müddətinə 8 min manata qədər əmək haqqı alanlarla, qeyri-neft və qaz sektorunda, özəl sektorda çalışan işçilərlə bağlı güzəşt tətbiq olunub. Çox yaxşı bir stimuldur. Amma bunun, eyni zamanda, dövlət sektoruna, yəni dövlət qulluğu olmayan sahədə dövlət büdcəsindən maliyyələşən insanlara şamil olunmaması dövlət sektorundakı işçilərin qeyri-özəl sektora axışına səbəb olmayacaq ki? Yəni burada dövlət büdcəsindən maliyyələşən elə təşkilatlar var ki, az maaş alırlar və onlar üçün 30 – 40 manatın əlavə olunması ciddi əhəmiyyət kəsb edə bilər. Bu mənada mən düşünürəm ki, bəlkə dövlət qulluğu olmayan, dövlət büdcəsindən maliyyələşən təşkilatlara da bu güzəştlərin verilməsi imkanına baxılsın.

Digər bir məsələ – sadələşdirlmiş vergi ödəyicisi kimi istehsalla məşğul olan və işçilərinin sayı 5-dən az olan müəssisələrə də şamil olunur. Bu say 10-a qaldırılsa, daha yaxşı olardı. Hesab edirəm ki, istehsal həcmi genişlənə bilər və daha çox müəssisələr həvəsli olar ki, vergi güzəştlərindən istifadə etməklə öz istehsal işlərini qursunlar.

Mən energetik içkilərə aksiz dərəcələrinin tətbiq olunmasını alqışlayıram. Biz bu məsələləri bir neçə dəfə Milli

Məclisdə qaldırmışdıq. Mən burada tütün məmulatları ilə yanaşı, bütün növ qəlyanların da bu aksiz vergilərinə cəlb olunmasını təklif edirəm. Çünki bizim "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Qanunumuzda qəlyanlar da tütün məhsullarına bərabər tutulur. Amma vergi qanununda bu məsələ öz əksini tapmayıbdır.

Başqa bir təklifim özəl səhiyyə müəssisələri ilə bağlıdır. Yəni özəl səhiyyə müəssisələri, əslində, dövlətin sosial yükünü, sosial məsuliyyətini daşıyır və bunlar, əslində, bizim xəstə vətəndaşlarımıza xidmət edirlər, gəlirləri də vətəndaşların ödədiyi vəsaitlər hesabına olur. Bir çox dövlətlərdə özəl tibb sektoru ya vergidən tam azaddır, ya da ki, bunlara güzəştli vergi tətbiq olunur. İndi biz təhsil müəssisələrinə güzəştli vergilər tətbiq etmişik, məktəbəqədər təhsil müəssisələri tamamilə azaddır. Yaxşı olardı ki, biz bunu özəl tibb sektoruna da tətbiq etmək imkanlarına baxaq. Bütövlükdə layihəyə səs verirəm, dəstəkləyirəm. Hesab edirəm, çox uğurlu bir layihədir, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli cənab Sədr. Hörmətli həmkarlar, bu müzakirə zamanı, demək olar ki, vergi orqanlarında həyata keçirilən islahatlarla bağlı çıxış edənlərin pozitiv fikirləri görülən bu işlərin nə dərəcədə təsirli olduğunun, cəmiyyət tərəfindən qəbul edildiyinin bir daha sübutudur. Həqiqətən də, son dövrlərdə Mikayıl müəllimin rəhbərliyi ilə vergi orqanlarında keyfiyyətcə yeni mərhələdə islahatlar həyata keçirilir.

Mənim təqdim olunmuş layihə ilə bağlı qaldıracağım məsələ isə son illərdə islahatlar həyata keçirilən digər bir orqanın problemi ilə bağlıdır. Söhbət vəkillik fəaliyyətindən gedir. Bilirsiniz ki, bizim qəbul etdiyimiz qanunlar nəticəsində vəkillik fəaliyyəti ilə bağlı ciddi islahatlar

başlanmışdır. Mən məhz Vəkillər Kollegiyasının, vəkillərin bir müraciətini diqqətə çatdırmaq istərdim. Vəkillər tərəfindən göstərilən hüquqi yardıma görə əldə edilən vəsaitlərin 20 faizi Dövlət Sosial Müdafiə Fonduna ayrılmaqla, bu vəsaitlər gəlir vergisinə də cəlb olunur. Həmçinin dövlət hesabına göstərilən hüquqi yardıma görə müdafiəçiyə ödənilən hər iş saatı üçün 6 manatdan formalaşan vəsait də son nəticədə vergiyə cəlb olunur. Beləliklə, vəkillik fəaliyyətindən əldə olunan vəsaitlərdən 35 faizdən artıq vergi tutulması həyata keçirilir. Ümidvarıq ki, gələcəkdə vəkillik fəaliyyəti ilə də bağlı həm vergi, həm də digər icbari ödənişlərə güzəştlər tətbiq olunacaq. Mikayıl müəllim özü tanınmış hüquqşünasdır, zamanında vəkil kimi fəaliyyət göstərib. Çox az şəxslərdəndir ki, Amerikada Nyu-York Vəkillər Kollegiyasının üzvü olub və mən bilirəm ki, o, vəkillik problemlərini də yaxından bilir. Ona görə Mikayıl müəllim, mən vəkillərin müraciətini çatdırmaqla gələcəkdə bu fəaliyyət növündə də vergi güzətşlərinin tətbiq olunmasını nəzərdə tutmağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sonuncu çıxış edən millət vəkilimiz Hikmət Məmmədov.

**H.Məmmədov.** Hörmətli Sədr, hörmətli millət vəkilləri, doğrudan da, bu gün Vergilər Nazirliyi tərəfindən səsləndirilən fikir və Vergi Məcəlləsinə edəcəyimiz dəyişiklik düşünürəm ki, gələcəkdə Azərbaycanda vergi yığımında yeni keyfiyyət dəyişikliyinə gətirib çıxaracaqdır və bunun da fəlsəfəsini, paradiqmasını müəyyən edən əsas prinsip ondan ibarətdir ki, vergi yığımları vergi ödənişlərinin artırılmasına görə deyil, vergi ödəyicilərinin sayının artırılmasına görə artırılmalıdır. Mən düşünürəm ki, bu çox mühüm məsələdir.

Bir sıra məsələlər də var ki, onlar gələcəkdə nəzərə alınsa, çox yaxşı olar. Mən düşünürəm ki, bunlardan biri bu vaxta qədər məhz vergi borclarına, yaxud vergi yükünün ağır olmasına görə istehsalını dayandıran müəssisələrdən güzəştli şərtlərlə vergi tutulması, onların müəyyən müddətdə vergidən azad olunması şərti ilə istehsalını yenidən bərpa etməsinə şərait yaradılmasıdır. Məncə, bu, gələcəkdə məhz bu fəlsəfəyə, yəni vergi ödəyicilərinin sayının artırılması məqsədinə xidmət etmiş olar.

İkinci məsələ – biz bilirik ki, Azərbaycanın regionları inkişaf edir, Azərbaycan Prezidenti regionların inkişafı ilə bağlı xüsusi siyasət həyata keçirir, dövlət proqramları qəbul edir və mən düşünürəm ki, vergi ödəyicilərinin coğrafiyasına görə diferensiallaşdırılmanın aparılması da yaxşı olardı, yəni eyni məhsulu istehsal edən və ya eyni fəaliyyətlə məşğul olan, amma fərqli coğrafiyada yerləşən vergi ödəyicisi daha az vergi ödəsəydi, həm regionların inkişafı üçün şərait yaranar, həm də regionlarda istehsalın təşkili və vergi ödəyicilərinin sayını artırmaq olardı. Çünki regionlarımızda bütün növ infrastruktur, yol, su, qazlaşdırma və sair var. Yəni regionların inkişafı üçün, bax, belə güzəştlərin həyata keçirilməsi daha yaxşı olardı.

Bayaq burada inhisar məsələsinə toxunuldu. Mən belə demək istəmirəm, amma Azərbaycanda istehsalçılar var və onlar, doğrudan da, bəzən inhisarçı kimi görünə bilmirlər. Ancaq məsələ ondadır ki, bu azmış kimi, məsələn, ərzaq istehsalı və digər istehsal sahələri ilə məşğul olan bu istehsalçılar kiçik və orta biznesin fəaliyyətini izləyirlər. Tutaq ki, ərzaq məhsullarının alğı-satqısı ilə məşğul olan hər hansı bir kiçik sahibkarın ticari dövriyyəsi bir neçə min manatı ötürsə, onun yanında dərhal yeni bir alğı-satqı məntəqəsi açmaqla özü istehsalçı kimi istehsal etdiyi

malları daha ucuz qiymətə sata bilir. Beləliklə, kiçik biznes sıradan çıxır. Ona görə də istehsalçı müəssisələr öz istehsal etdiyi məhsulların pərakəndə satışı ilə məşğul olmamalıdırlar, yaxud bu rəqabətdə onlara daha ağır şərtlər qoyulmalıdır ki, digər şəxslər də bu prosesdə inkişaf edə bilsinlər. Yəni nəticə etibarı ilə əgər bu meyil davam edərsə, kiçik və orta sahibkarlıq, xüsusən alğı-satqı ilə məşğul olan kiçik və orta sahibkarlıq sıradan çıxa bilər.

Bütövlükdə, əlbəttə ki, bu dəyişikliklər mühüm dəyişikliklərdir və gələcəkdə Azərbaycanda vergi sahəsində aparılan islahatların, mən düşünürəm ki, başlanğıcı kimi qiymətləndirilməlidir. Mən bu qanun layihəsinə səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Biz fikir verdik ki, çıxış edən bütün həmkarlarımız bu dəyişikliklərə çox yüksək qiymət verdilər, müsbət münasibət bildirdilər. Çox sağ olun.

İndi isə gəlin, birinci oxunuşda layihəyə münasibətimizi bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Vergi Məcəlləsinə dəyişikliklər birinci oxunuşda qəbul edildi.

Tənəffüs elan edilir.

## *(FASİLƏDƏN SONRA)*

**Sədrlik edən.** Gündəliyin 8-ci məsələsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli həmkarlar! Əslində İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklik də bizim birinci hissədə müzakirə etdiyimiz vergi islahatlarının bir elementi kimi qəbul olunmalıdır. Bildiyiniz kimi, aksiz markası ilə markalanmalı olan malların belə markalar olmadan satılması, saxlanması və sair üçün inzibati cərimə nəzərdə tutulur və inzibati cəriməni tətbiq edən də məhkəmələrdir. Buna görə də məhkəmələrdə iş yükü lüzumsuz olaraq artmış olur. Təklif olunan dəyişiklik isə bu məsələlərin inzibati cərimə kimi deyil, maliyyə sanksiyaları tətbiq edilməklə həllini nəzərdə tutur. Prinsipcə, mahiyyətcə eynidir və bu sanksiyaları da tətbiq edəcək orqan vergi orqanlarıdır. Məhz buna görə də bu məsələ İnzibati Xətalar Məcəlləsindən çıxarılır və pozuntulara münasibətdə maliyyə sanksiyalarının tətbiqini nəzərdə tutan müddəalar artıq Vergi Məcəlləsində öz əksini tapacaqdır. Hesab edirəm ki, bu, məsələnin çox pozitiv və işin xeyrinə olan bir həllidir. Həmkarlarımdan səs verməyi xahiş edirəm.

**Sədrlik edən.** Əgər başqa təklif yoxdursa, bu da birinci oxunuşdur, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.03 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 
Nəticə: Qəbul edildi

Çox sağ olun, qəbul edildi.

9-cu məsələ "Büdcə sistemi haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Bu da birinci oxunuşdur. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi aşağıdakıları nəzərdə tutur:

"Büdcə ssudaları" və "xərclənə bilən neft gəlirləri" anlayışlarının dəqiqləşdirilməsi və qanunun məqsədləri üçün yeni anlayışların müəyyən edilməsi.

Buraya icmal büdcənin neft gəlirləri, icmal büdcənin qeyri-neft gəlirləri, dövlət büdcəsinin neft gəlirləri və dövlət büdcəsinin qeyri-neft gəlirləri anlayışları daxildir.

Büdcə sənədlərinin daha dolğun olması, eləcə də vergi ödəyicilərinin maraqlarının qorunması üçün büdcə sənədlərində yeni məlumatların öz əksini tapması.

Buraya hesablanmış, ödənilmiş, artıq ödənilmiş vergilər və artıq ödənilmiş vergilərin büdcədən qaytarılan məbləğləri barədə əvvəlki iki il və cari ilin müvafiq hesabat dövrü üzrə məlumatlar daxildir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulmuş güzəşt və azadolmalar barədə məlumatlar.

Bu isə azadolma və güzəştlərin həcminə, səmərəliliyinə, onun məbləği barədə qiymətləndirmələrə imkan verəcəkdir.

Dövlət borcuna xidmətlə bağlı müddəaların təkmilləşdirilməsi, xüsusilə büdcə ili ərzində vahid xəzinə hesabı-

nın sərbəst qalığının müəyyən edilməsinin, dövlət borcu və zəmanəti üzrə öhdəliklərin təminat fonduna köçürülməsinin təsbit edilməsi.

Dövlət borcunun ödənilməsi onlara xidmət üçün əlavə maliyyə imkanları yaradacaqdır.

Qanunun müddəalarının dəqiqləşdirilməsi üçün bir sıra texniki xarakterli düzəlişlər də nəzərdə tutulmuşdur. Ona görə birinci oxunuşda konseptual baxımdan qəbul edilməsini xahiş edərdim.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli.

**Ə.Məsimli**. Çox sağ olun. Cənab Sədr, büdcə sistemi haqqında qanunvericilik sənədlərinin dəyişdirilməsinin kökündə bilavasitə yeni büdcə qaydaları durur. Yeni büdcə qaydalarının da mahiyyəti ondan ibarətdir ki, bundan sonra neftlə bağlı bloklarda müəyyən dəyişikliklər edilsin və büdcədə neftin payının artırılmasının qarşısını almaq üçün əlavə tədbirlər görülsün. Bilirsiniz ki, son dövrlərdə dünya neft bazarında gedən proseslər, kataklizm xarakterli məsələlər xeyli dərəcədə mənzərəni dəyişib. Biz 2019-cu ilin büdcəsini müzakirə eləmək ərəfəsində dünya bazarında “Azəri Layt” markalı neftin qiyməti 87 dollar, yəni 2019-cu ilin büdcəsinin əsasına qoyulmuş 60 dollardan 27 dollar, yaxud da 30 faizə qədər yüksək idi. İndi artıq bizim neftin qiyməti 60 dollara düşüb və biz də büdcədə 60 dollar götürmüşük. Bu istiqamətdə müxtəlif təkliflər səslənir ki, bəlkə biz 55 dollara çatdıraq. Amma belə bir məntiqi də götürək ki, 2018-ci ilin büdcəsini 55 dollarla, 2019-cu ilin büdcəsini 60 dollarla hesablamışıq və büdcənin əsasına qoyulmuş həmin neft proqnozunu 55-dən 60-a çatdırmağın 2019-cu ilin büdcəsinə nə istisi, nə də soyuğu var, yəni elə bir ciddi təsir göstərmir. Ona görə də aşağısalma məsələsində bir problem olmaz. Amma

dünya bazarında neftin qiymətinin enməsinin sürətlənməsi xeyli dərəcədə büdcəsi neft hasilatından asılı ölkələr, o cümlədən Azərbaycan üçün bir sıra problemlər yarada bilər. Bununla əlaqədar bir sıra suallar var ki, həmin suallar gələn ilin maliyyə, büdcə, pul siyasəti ilə bağlı bir sıra məsələləri təshih eləməyə əsas yaradır.

Birinci, neft hasil edən ölkələrin əksəriyyəti neftin konkret olaraq hansı qiymətinə qədər büdcənin dayanıqlı ola biləcəyi ilə bağlı hesablamalar aparır. Amma nədənsə Maliyyə Nazirliyi bu dəfə dövlət büdcəsini adi və pessimist ssenari üzrə tərtib eləməyib və bu sual açıq qalır. Ona görə də belə bir sualla müraciət eləmək istəyirik ki, Azərbaycan büdcəsinin dayanıqlığı neftin qiymətinin hansı həddinə qədərdir? Bu istiqamətdə araşdırmalar aparsınlar və bu suala növbəti ikinci oxunuşa qədər cavab vermələrini xahiş edirəm.

İkinci, son vaxtlar neft bazarında gedən proseslər göstərir ki, bu bazar yenidən 4 il əvvəlki vəziyyətə – 2014-cü ildə neft şokunun təkrarlanmasına istiqamətlənir. Hökumətin aidiyyəti qurumları, ilk növbədə maliyyə naziri 2019-cu ildə neft bazarındakı potensial fors–majorlara indidən hazır olmalıdır. Sual isə belədir ki, bu istiqamətdə hansı tədbirləri görəcəklər?

Üçüncü, 2019-cu il büdcə zərfində qarşıdakı illərdə manatın dollara nisbətdə məzənnəsi 1 manat 70 qəpik səviyyəsində proqnozlaşdırılır. Azərbaycanda ixracın 90 faizindən çoxu neftlə bağlı olduğundan neftin dünya bazarında qiymətinin ucuzlaşması Azərbaycanın neft ixracından gözlədiyi gəlirləri xeyli dərəcədə azaltmağa başlayacaq. Bu isə xarici ticarət və tədiyə balansında vəziyyətə mənfi təsir göstərməklə, neftin aşağı qiymətlərinin mövcudluğu müddətindən asılı olaraq manata təzyiqləri artıracaq.

Azərbaycanın daha çox ticarət etdiyi Rusiya və digər qonşu ölkələrdə də milli valyutanın məzənnəsinin sabitliyinin pozulma ehtimalının getdikcə artdığı bir şəraitdə manata təzyiqləri də bura əlavə etsək, bu proseslər yaxın zamanlarda olmasa da, yaxın illərdə manatın dollara məzənnəsinə təsirsiz ötüşməyəcək. Hökumət makroiqtisadi sabitliyi qoruyub saxlamaqdan, eləcə də manata təzyiqləri neytrallaşdırmaqdan, o cümlədən itkiləri minimuma endirməkdən ötrü hansı qabaqcıl tədbirləri həyata keçirmək fikrindədir? Mən bu sualı qaldırıram. İndidən xəbərdarlıq eləyirik, çünki arzu eləməzdik ki, 2015-ci ildəki kimi heç bir əsas olmadan bir də devalvasiyaya gedilsin. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Başqa fikir yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibətimizi bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.11 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 10-cu məsələ, “Dövlət borcu haqqında” Qanunda dəyişiklik edilməsi barədə buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə**. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və

uzun müddət üçün Strategiya” tərtib edilmişdir. Həmin strategiyaya əsasən qarşıdan gələn strateji dövrdə – 2018–2025-ci illərdə dövlət borcunun idarə olunması sahəsində əsas məqsəd gələcək illər üçün dövlət borcunun dayanıqlığını təmin etməklə ÜDM-ə nisbətinin tədricən azaldılmasına nail olmaqdır. Bu isə orta müddətli dövrdə dövlət borclarının idarə edilməsinin strateji çərçivəsinin yaradılmasını, habelə xərc və risklərin müvafiq tarazlığı nəzərə alınaraq ən optimal maliyyə alətlərinin seçilməsini tələb edir.

Qanun layihəsi Büdcə sistemi haqqında Azərbaycan Respublikası qanununun layihəsi ilə əlaqədar olub, dövlət borcu və dövlət zəmanəti, habelə dövlət borcuna xidmətlə bağlı müddəaların təkmilləşdirilməsini, o cümlədən bir sıra dəqiqləşdirmə xarakterli müddəaları nəzərdə tutur. Qanun layihəsinə əsasən hər il üçün “Dövlət büdcəsi haqqında” Qanunda dövlət borcunun digər göstəriciləri, yəni dövlət borcunun yuxarı hədləri, borcun ümumi daxili məhsula nisbəti, borcun mal və xidmətlərin ixracının həcminə nisbəti, borca xidmət xərclərinin büdcə xərclərinə nisbəti və sairlə yanaşı, il ərzində veriləcək dövlət zəmanətinin məbləğinin yuxarı hədləri, əsasən, milli valyuta ilə müəyyənləşdiriləcəkdir.

Qanun layihəsinə əsasən dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun təyinatında, formalaşma mənbələrində vəsaitlərdən istifadə qaydasında da dəyişikliklər nəzərdə tutulur. Təminat Fondu dövlət borcuna xidmət xərclərinin müvafiq büdcə ili üçün dövlət büdcəsində nəzərdə tutulandan artıq olan hissəsinin və dövlət zəmanəti üzrə öhdəliklərin yerinə yetirilməsini təmin etmək üçün nəzərdə tutulur. Qanun layihəsi dövlət borcunun götürülməsinə və dövlət zəmanətinin verilməsinə nəzarəti

artırır, dövlət borcuna xidmət üçün vəsaitlərin mənbələrini artırır və son nəticədə dövlət borcuna daha operativ və keyfiyyətli xidmət göstərilməsinə imkan yaradır.

Biz artıq bu barədə kifayət qədər danışırıq və dövlət büdcəsinin müzakirəsində də bir daha qeyd olundu ki, Azərbaycan dövləti dövlət borclarından səmərəli istifadə etməyi bir strateji hədəf kimi qarşıya qoymuşdur və qəbul ediləcək qanun layihəsi də bu məqsədə çatmaq üçün mühüm vasitə olacaqdır. Ona görə də millət vəkillərindən xahiş edirəm ki, qanun layihəsini konseptual olaraq birinci oxunuşda qəbul edək.

**Sədrlik edən.** Əgər başqa təklif yoxdursa, Dövlət borcu haqqında qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.15 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

11-ci məsələ “Sosial sığorta haqqında” Qanunda dəyişiklik edilməsi haqqındadır. Buyursun Hadi Rəcəbli.

**H.Rəcəbli**. Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlarım, “Sosial sığorta haqqında” Qanunda dəyişiklik edilməsi fikrini artıq neçə illərdir ki, parlamentin komitəsində də, plenar iclasda da deputat həmkarlarım tez-tez müzakirə edirlər. Mahiyyət nədən ibarət idi? Mahiyyət odur ki, qeyri-leqal məşğulluq hesabına ölkəmizdə min-

lərcə işçi sığortalanmırdı və bunun hesabına da, əlbəttə, sosial müdafiə sistemindən uzaq düşürdü. Bu, olduqca düşündürən məsələ idi, məhz buna görə də möhtərəm Prezidentimizin 2017-ci il 9 oktyabr tarixli Sərəncamı "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı" təsdiq edilib. Məhz bu tədbirlər planında həmin məsələlər öz əksini tapmışdır.

Hörmətli vergilər naziri Mikayıl müəllim vergi ilə bağlı görülən işləri öz çıxışında səsləndirdi. Bu, bizim istədiyimiz leqallaşdırma məsələsinin qollarından biridir.

İkinci istiqamət isə sığortadan azad edilmədir. Bildiyiniz kimi, 7 il ərzində sosial sığortadan ödəmələrdə ciddi dəyişikliklər olur. Burada rəqəmlərin hamısı göstərilir. Beləliklə, 7 il müddətinə kiçik sahibkar, işəgötürən əvvəllər ödədiyi 22 faiz əvəzinə sığortaya 15 faiz vəsait ödəyir, işçi isə 14 faiz vergini verməyərək 13 faiz sığorta haqqı ödəyir, 17 faiz əvəzinə 10 faiz sığorta ödənişi aparır. Bu da, əlbəttə, bütövlükdə vergi yükünü həm sahibkar üçün, həm də işçi üçün azaldır.

Burada üç başlıca xətt var. Birincisi, sahibkarın vergi yükü azalır, ikincisi, işçilər sosial müdafiəyə cəlb olunur, üçüncüsü, əvvəllər bütün bu əməliyyatlar sığorta fondu vasitəsi ilə aparılırdı, indi isə bütün əməliyyatlar Vergilər Nazirliyi xətti ilə aparılacaq, bu da, əlbəttə, sahibkarın üzləşdiyi həmin o qurumların birinin azalmasına gətirib çıxaracaq və eyni zamanda, intizamın ciddiləşməsinə yol açacaq.

Oqtay müəllim, mən geniş məlumat vermək istəmirəm, sənəddə bəzi texniki səhvlər var, bunlar bizdə nəzərdə tutulub. 1.9.2-ci maddədə bəzi düzəlişlər var. Digər belə texniki nöqsanlar var ki, biz onları ikinci oxunuşda mütləq

düzəldəcəyik və layihə bütövlükdə həm sahibkara, həm də işçiyə böyük dəstəkdir. Ona görə deputat həmkarlarımı bu sənədə səs verməyə çağırıram. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Başqa təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.18 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 12-ci məsələ İşsizlikdən sığorta haqqında qanun layihəsində dəyişiklik edilməsi barədədir. Hadi müəllim, buyurun.

**H.Rəcəbli**. Hörmətli Oqtay müəllim, hörmətli deputat həmkarlarım, burada, əsasən, bir məqamı nəzərə almaq lazımdır. Demək, işçidən və işəgötürəndən 0,5 faiz sığorta haqqı tutulurdu. Əvvəllər bu əməliyyatları Dövlət Sosial Müdafiə Fondu yerinə yetirirdi, bu qanunla isə Vergilər Nazirliyi icra edəcək. Beləliklə, 0,5 faizləri, işsizlikdən sığortanı, fondun büdcəsini müzakirə etdik. Bunun məqsədi odur ki, məşğulluğu təmin etsin. Bu da önəmli bir düzəlişdir.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.19 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Nəhayət, bu qəbildən "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə, Hadi müəllim, buyurun.

**H.Rəcəbli**. Oqtay müəllim, "Əmək pensiyaları haqqında" Qanuna dəyişikliklər çoxdur. Mən bunun iki istiqamətini deputat həmkarlarıma çatdırmaq istəyirəm. Birinci istiqamət: siz bilirsiniz ki, əvvəllər dövlət qulluqçuları üçün bu məqamlar var idi, biz onu tətbiq eləmişik. Deməli, bizə iki dəfə mükafat verilir. Mən izah edirəm ki, deputat həmkarlarımıza aydın olsun. Dövlət qulluqçularına və eyni zamanda, deputatlara şamil olunmuşdu ki, aldığımız əmək haqqını və iki müavinəti də sığortaya cəlb etmişdik. Dövlətin verdiyi vəsaitlər hesabına pensiyaya çıxanda biz bunun 80 faizini ala bilirdik.

İndi digər orqanlarda görün, nə edirlər: digər orqanların adı yazılıb, mən istəmirəm, oxuyub vaxt alım. Dövlətin nəzərdə tutduğu həmin o mükafatlar öz yerində, bunların büdcədənkənar, cərimədən qazandıqları digər müavinətlər, məbləğlər də sığortaya cəlb olunurdu. Son ildə, son aylarda bunu da sığortaya cəlb edirdilər. Beləliklə, əmək haqqından 12 dəfə artıq məbləğ yaranırdı. Demək, o adamların aldığı vəsaitdən bir neçə dəfə çox böyük bir məbləğ yaranırdı və sonradan bu məbləğdən pensiya alınırdı. Misal üçün deyim ki, hansısa vəzifəli şəxs əgər 1 manat pensiya alırdısa, dediyim o qrup insanlar isə 10 dəfə artıq pensiya alırdı. Birinci düzəliş bu idi ki, orada belə də yazılıb, diqqətlə baxsanız, – "büdcədənkənar vəsaitlər

hesabına hesablanan əlavələr və digər ödənişlər istisna olmaq şərti ilə", – yəni pensiya hesablananda bu cür ödənişlər nəzərə alınmır. Bu, ciddi bir məqamdır. Bunun hesabına da büdcədən Dövlət Sosial Müdafiə Fondunun olduqca çox vəsaiti gedirdi. Burada da bir sıra uyğunsuzluqlar olurdu, ədalət pozulurdu və sair.

İkinci ən ciddi və önəmli məqam ondan ibarətdir ki, bizim əvvəlki pensiya qanununa əsasən, ölkəmizdə 25 il əmək stajı toplamayan, lakin yaşı çatan vətəndaş pensiyaya çıxa bilmirdi. Yaş 64-dür, gələcəkdə 65 olacaq, amma 25 il stajı yoxdur. Belə olan halda, adamın pensiya hüququ olmurdu. Beləliklə, böyük bir addım atırıq. Biz burada möhtərəm Prezidentimizə minnətdarlığımızı bildiririk. Bizim komitə iclasında dönə-dönə səsləndi. Vətəndaşlar bu gün mətbuatdan oxuyurlar, eşidirlər və çox böyük minnətdarlıq edirlər ki, böyük bir qrupun, haradasa 100 minə yaxın pensiya hüququ çatmış, amma stajı olmayan adamların burada pensiya hüququ yarana bilir. Bu staj məsələsi 2006-cı il yanvarın 1-nə qədər 25 il birdəfəlik, ondan qalan vəsaitlər isə başqa cür hesablanır. Burada qaçqın və məcburi köçkünlərlə bağlı çoxlu məqamlar var idi ki, bunlar problemlər yaradırdı. Beləliklə, bu iki addım bütövlükdə həm dövlətçiliyimizə, həm də vətəndaşlarımızın obyektiv, real pensiya hüquqlarının artmasına xidmət edir. Xahiş edirəm, deputat həmkarlarım səs versinlər. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vahid Əhmədov.

**V.Əhmədov.** Çox sağ olun, Oqtay müəllim. Hadi müəllim burada "Əmək pensiyaları haqqında" Qanuna düzəlişlə bağlı qeyd etdi. 20-ci maddəyə bənd əlavə eləmisiniz. 20.30-cu maddədə, bayaq qeyd etdiyiniz kimi, əmək pensiyalarına qulluq stajına görə əlavə hesablanarkən

əmək haqqına, dövlət məvacibinə və vəzifə maaşına büdcədənkənar vəsaitlər hesabına verilən əlavələr və digər ödənişlər nəzərə alınmır. Bu, 1–2 nəfərlə əlaqədar məsələ deyil. Burada Vergilər Nazirliyidir, Dövlət Gömrük Komitəsidir, Daxili İşlər Nazirliyidir, Kənd Təsərrüfatı Nazirliyidir, təxminən 50-60 min adamdan söhbət gedir, əsas məsələ onların pensiyası ilə əlaqədardır. Birincisi, istənilən qərarı qəbul edəndə və ya qanuna dəyişiklik edəndə onun maliyyə tutumunu hesablayıb məlumat vermək lazımdır.

Bu dəyişiklik Azərbaycanın Dövlət Sosial Müdafiə Fonduna nə verəcək? Doğrudanmı, bu dəyişiklik Dövlət Sosial Müdafiə Fonduna əlavə vəsait verəcək? Amma mənim aldığım məlumata görə, həmin insanlar faktiki olaraq həmin əlavələrdən 22+3 faizi, yəni 25 faizi ödəyirdilər. Burada heç bir problem yox idi. İndi hansı isə məmur, mən bilmirəm, vəzifədən çıxandan sonra özünə yüksək maaş yazıbsa və kifayət qədər pensiya alıbsa, bunu bütün insanlara aid etmək olmaz. Elə insanlar var ki, şirkətlərdə işləyirlər, 700-800 manat maaş alırlar. Onlar gözlərini dikiblər ki, bu məbləğlər əlavə olaraq pensiyalarının üstünə gələcək və əlavə pensiya alacaqlar. Bu, həmin sistemdə müəyyən qədər kadr potensialının axınına da səbəb ola bilər. Yəni mən belə hesab edirəm ki, bunun üçün müəyyən vaxt vermək lazımdır. Həmin nazirliklər bu məsələləri haradasa 1-2 il aydınlaşdırsınlar. Ümumiyyətlə, mən bunu yenə qeyd edirəm, əgər doğrudan da, pensiya fonduna əlavə vəsait gələcəksə, bu, başa düşüləndir. Amma hesablamaları biz aparmışıq. Onlar, əksinə, dövlət büdcəsinə, Dövlət Sosial Müdafiə Fonduna 25 faiz əlavə vəsait ödəyirlər, oradan götürdükləri bundan təxminən 2 dəfə azdır. Ona görə də mən belə hesab edirəm ki,

bu məsələyə qayıtmaq lazımdır.

Mən bayaq ikinci bir məsələni qeyd etdim, Oqtay müəllim də qeyd etdi. Mən ehtiyac meyarı ilə əlaqədar olaraq çıxış etmədim. Cənab nazir yenidir. Beynəlxalq iqtisadiyyatda "ehtiyac meyarı" anlayışı, ümumiyyətlə, yoxdur. Bunu bizimkilər Prezident Aparatında fikirləşdilər, o vaxt ünvanlı sosial yardım alanda "ehtiyac meyarı" anlayışını saldılar və biz də buna etiraz etdik. Sonra Əli Məsimli də müəyyən təkliflər verdi, qəbul olunmadı. Mən xahiş edirəm, gələn il dövlət büdcəsində "ehtiyac meyarı" anlayışı "yaşayış minimumu" anlayışı ilə əvəz edilsin. Çünki insanları əsas maraqlandıran yaşayış minimumudur və biz onların, necə deyərlər, maddi münasibətlərini yaşayış minimumuna bağlamalıyıq. Xahiş edirəm, bu məsələlərə baxılsın. Sağ olun.

**Sədrlik edən.** Vahid müəllim, mən bunu keçən dəfə Sizdən də qabaq dedim, bu məsələlərə gələn il üçün baxılmalıdır. Zahid Oruc.

**Z.Oruc.** Cənab Sədr, çox təşəkkür edirəm. Hörmətli Hadi müəllim çox qısa şəkildə təfərrüatı qeyd etdi. Bu məsələdə əmək pensiyaları ilə bağlı qeyd olunan staj amnistiyasının ifadə olunmasını cəmiyyət alqışlayır. Həqiqətən də, biz bu problemi illərlə görməkdəyik. 2006-cı ildən sonra təsdiq olunan sığorta sistemi, ona qədərki stajla bağlı problemlər insanları incitməkdədir. Bir neçə gün əvvəl 64 yaşlı bir insan, bir Bərdə vətəndaşı qəbulumuza gəlib. 21 il dediyiniz stajı var, 4 ili çatmır və o, təzədən 67 yaşını gözləməlidir. Elə hesab edirəm ki, təsdiq olunacaq insanların sırasında belə adamlar da var. Bunu hər birimiz alqışlayırıq.

Amma mən ikinci məsələ ilə əlaqədar problemi vurğulamaq istəyirəm. Ötən dəfə biz sosial təminat sistemində

aparılan uğurlu addımları təqdir etdik, yəni mənim fikirlərim hörmətli Sahil müəllimin əleyhinə görünməyəcək. Şəxs olaraq ehtiramım var, istedadlıdır, sonuncu dəfə ekranda da bu məsələlərlə bağlı suallara geniş, ətraflı cavablar verdi. Amma hər dəfə nazir dəyişəndə pensiya sistemində köklü dəyişikliklər baş verir və bu, qeyri-sabitlik yaradır. Bayaq biz deyirdik, vətəndaş necə eləsin ki, 25 il öz gələcəyi haqqında tam əmin olsun, bilsin ki, indi ödədiklərinin nəticələri olacaq. Büdcədənkənar fondlar vasitəsi ilə ödənişlər olur. Doğrudur. Gömrük sisteminin işçisi, nümayəndəsi mənə telefon açıb deyir ki, eşitmişik, belə bir qanun layihəsi artıq sizə gəlməkdədir. Deyirəm, doğrudur. O zaman biz hələ bu tətbiq olunmamış, qanuni qüvvəyə minməmiş, daha tez çıxaq, belə bir vəziyyətdə hərəkətlənmə baş verir. Bu, kadr korpusunun durumuna necə təsir edir – bu, ayrı bir mövzudur. Onun ödənişləri necə olub?

Qanunun fəlsəfəsi odur ki, vətəndaşın vəziyyətini ağırlaşdırmasın. O, 5 il, 10 il, 15 il həmin şərtlərlə əmək haqqı alırdı, yəni 250 manat vəzifə maaşı üstəgəl 1750 manat – 2 min manat. 2 min manatdan ödənişlər edib. Biz indi büdcədənkənar hissəsini qırağa qoyuruq, deyirik ki, bu, tətbiq olunmayacaq. Hətta deyirsiniz ki, büdcə bundan 20–25 milyon manat əlavə vəsait əldə etmiş olacaq. Bəs o insanlar? Onlar qanunumuzun indi qüvvədə olan müddəaları ilə bu qədər ödənişlər ediblər. Ona görə mən Azərbaycanda sabit pensiya modelinin bərqərar olmasını istəyirəm. Bilmirəm, burada mediadan kimsə varsa, fikrimizin konkret bir nazirliyə, bir struktura qarşı yönəlməməsini arzulayıram. Yəni hər birimiz arzulayırıq ki, Azərbaycana xas mükəmməl bir sistem yaransın. Almaniyadan götürülən model, yaxud da ki, başqa Avropa

ölkələrinin sistemi bizdə uğurla çalışmaya bilər. Həqiqətən, onlar fərqlidir, orada özəl pensiya sistemləri geniş yayılıb. Ona görə də mən bu məsələ ilə bağlı düşünürəm ki, qanunun təşəbbüskarları geniş, ətraflı təhlillər aparacaqlar. Söhbət yalnız gömrük və vergidən, həmçinin daxili işlər orqanlarında çalışanlardan getmir. Mən bunu demək istəyirəm. Çox sağ olun.

**Sədrlik edən.** Narahat olma, onların hamısını hesablayırlar. Mən dedim, bu, birinci oxunuşdur. Qabaqda ikinci oxunuş var. Sahil müəllim ikinci oxunuşda da cavab verə bilər. İstəyirsə, indi söz verək. Sahil müəllim.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sahil Babayevə mikrofon verin.

**S.Babayev.** Çox sağ olun, Oqtay müəllim. 2 məsələ ilə bağlı vurğulamaq istədiyim bəzi məqamlar var. Birinci məsələ pensiyaların avtomatlaşdırılması ilə bağlıdır. Bu, həqiqətən də, möhtərəm cənab Prezident tərəfindən atılmış böyük, humanist bir addımdır. 2006-cı ilə qədər növbəti ildən etibarən pensiyaya çıxacaq şəxslərə 25 il stajın verilməsi, staj ilinin qəbul edilməsi onların böyük əksəriyyətinin məhz pensiya təminatının olmasına imkan yaradacaqdır və insanların, fərdlərin pensiyalarında, bu gün aldıqları müavinətlərdə, sosial müavinət alanların müavinətlərində, gələn ildən pensiyaya çıxan şəxslərdə ciddi şəkildə artım əmələ gələcəkdir.

Mən xüsusi olaraq rəqəmləri səsləndirmək istəyirdim. Gələn il 122 manatdan az pensiya alan 45 min nəfərin pensiyaları 35 faiz artacaqdır. 73 manat sosial müavinət alan şəxslərin isə aylıq gəliri 122 manata yüksələcəkdir. Yəni təqribən 38 min adamın aylıq gəliri 48 faiz, 45 min nəfərin pensiyaları isə 35 faiz artacaqdır. Azərbaycan vətəndaşlarının gələn ildən başlayaraq pensiya təminatı

tam avtomatlaşdırılmış şəkildə aparılacaq. Biz inanırıq ki, bu da sosial sahədə atılmış ən böyük addımlardan biridir. Həqiqətən də, pensiya sahəsində inqilabi bir dəyişiklik olacaqdır, vətəndaş məmnunluğu üçün ciddi şəkildə dəstək verəcəkdir. Amma bu rəqəmlər, dediyim artımların hər biri gələn ildən etibarən pensiyaya çıxan şəxslərə aid olacaqdır, 2019-cu ildən etibarən pensiyaya çıxan şəxslər üçündür.

Digər məsələyə gəldikdə isə, bu gün bir sıra şəxslərə büdcədənkənar vəsaitlər hesabına əlavələr yazılır. Bu əlavələr də pensiya təminatında nəzərə alınır. Hadi müəllim qanunun konsepsiyası, fəlsəfəsi barədə məlumat verdi. Hörmətli millət vəkillərimizin suallarından çıxış edərək bir məlumatı verim ki, o büdcədənkənar vəsaitlər sosial sığorta qismində yenə hesablanacaqdır. Bu gün dövlət qulluqçuları, hərbi qulluqçular, yəni qanunun 20-ci maddəsinin əhatə dairəsinə düşən şəxslər pensiya təminatına çıxdıqda onlar üçün 2 üsulun hər ikisində – biri standart sosial sığorta təminatı, digəri isə 20-ci maddəyə müvafiq olaraq əmək haqqı və təminatların müəyyən faizə vurulması yolu ilə hesablanma aparılır. Hansı çoxdursa, ondan istifadə edirlər. Bu gün verilən dəyişikliklər büdcədənkənar vəsaitlərin tamamilə silinməsi üçün deyil. Büdcədənkənar vəsaitlər yenə sosial sığorta qismində hesablanacaqdır və vətəndaşın yenə hüququ olacaqdır ki, sosial sığorta qismində o vəsaiti alsın. Lakin onlar 20-ci maddənin tələblərinə uyğun olaraq müəyyən edilmiş faizə vurulmayacaqdır. Məlumat üçün qeyd edim ki, bu vəsaitlər  Dövlət Sosial Müdafiə Fondunun vəsaiti deyil, bu əlavələr, yəni 20-ci maddə üzrə əlavələr dövlət büdcəsinin öhdəliyidir və dövlət büdcəsi tərəfindən qarşılanan öhdəlikdir.

Bugünkü mənzərə bundan ibarətdir ki, bir sıra qurumlarımızda sıravi işçilər belə ali qurumlarımızdakı ali rütbəli, ali vəzifəli şəxslərimizdən yüksək pensiya ilə pensiyaya çıxırlar. Yəni bu gün həmin 20-ci maddənin əhatə dairəsinə düşən şəxslər arasında pensiya təminatında ciddi ədalətsizlik var. Yüksək ali vəzifəli şəxslərimiz daha aşağı məbləğlə, amma aşağı qurumda olan sıravi işçilərimiz büdcədənkənar fondlar, verilmiş vəsaitlər hesabına daha yüksək məbləğlə pensiyaya çıxırlar. Ona görə də qanunun bu maddəsi dövlət qulluğunda, hərbi qulluqda xüsusi rütbəli şəxslər üçün həmin ədalət prinsipinin qorunmasına, təmin edilməsinə yönəldilmişdir. Bu vəsaitlər yenə də hər bir şəxsin fərdi uçotunda nəzərə alınacaqdır. Sosial sığorta prinsipi üzrə pensiyaya çıxdıqda onların hər biri nəzərə alınacaqdır. Amma 20-ci maddənin konsepsiyasından pensiyaya çıxdıqda isə bunlar nəzərə alınmayacaqdır. Ona görə də xahiş edirəm ki, millət vəkilləri də nəzərə alsınlar. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, Əmək pensiyaları haqqında qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.36 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 3 məsələ - Daxili Nizamnaməyə dəyişiklik

edilməsi, Deputatın statusu haqqında, bir də Deputatın etik davranış qaydaları haqqında qanunlar üçüncü oxunuşdadır. Buyursun Əli Hüseynli. 14-cü məsələ, üçüncü oxunuş.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli cənab Sədr. Oqtay müəllim, icazə versəniz, hər 3 məsələni birlikdə məruzə edim. Hörmətli həmkarlar, ikinci oxunuş zamanı hörmətli millət vəkillərinin bir sıra təklifləri olmuşdur. Bu məsələlər işçi qrupu tərəfindən araşdırılıb və bir sıra təkliflər nəzərə alınıb. Nəzərə alınmayanlarla bağlı qısaca məlumat vermək istəyirəm.

Həmkarlarımız 6-cı maddəyə təkliflə əlaqədar iradlarını yox, daha dəqiq desəm, narahatlıqlarını bildirmişdilər. Bu, "Fasilədən sonra Milli Məclisin iclasında üzrsüz səbəbdən qeydiyyatdan keçməyən Milli Məclis deputatı həmin iclasda iştirak etməmiş hesab edilir" ifadəsi ilə bağlıdır. Hörmətli həmkarlar, qeyd etməliyəm ki, mövcud variantda da Milli Məclisin iclasları iclasda iştirak edən deputatların qeydiyyatından başlayır. Fərqi yoxdur, bu, iclasın birinci, yaxud ikinci hissəsidir. Birinci, yaxud da ikinci fasilədən sonra olmasına baxmayaraq, bu, iclasdır. Amma iclasda üzrlü səbəblə bağlı prosedur da məlumdur.

Milli Məclisin iclasında üzrlü səbəbdən iştirak edə bilməyən deputat bu barədə Aparata məlumat verməlidir. Yəni ikinci hissədə bir qədər gecikmə baş verirsə və bu üzrlü səbəbdəndirsə, sadəcə, Aparata məlumat vermək kifayətdir. Amma millət vəkili üzrsüz səbəbdən iclasda iştirak edə bilməyəcəksə, qabaqcadan Milli Məclisin Sədrinə, yaxud da iclasda sədrlik edən şəxsə məlumat verməlidir. Bu prosedurlar mövcuddur. Bizim əlavəmiz ancaq ikinci hissədə qeydiyyat məsələsidir. Bu da təbiidir. Əslində, ikinci hissədə də iclasdır və həmin iclasda da birinci

hissədə olan məsələlər kimi qanunlar müzakirə olunur. Bu baxımdan, əslində, heç bir narahatlıq yoxdur. Sadəcə, Milli Məclisin Daxili Nizamnaməsinin mövcud müddəalarına riayət etmək lazımdır.

Bir sıra tənqidi fikirlər olmuşdur, mən bu barədə geniş danışmışam – Milli Məclisin İntizam komissiyası ilə bağlı məsələyə niyə Mərkəzi Seçki Komissiyasında baxılır? Belə bir fikir də səslənmişdi ki, Mərkəzi Seçki Komissiyası texniki məsələlərə baxır. Bu, yanlış fikirdir. Seçki Məcəlləsinin 176.2-ci maddəsinə görə, Konstitusiyanın 89-cu maddəsinin 1-ci, 4-cü bəndlərində göstərilən hallarda Mərkəzi Seçki Komissiyasına rəsmi məlumat daxil olduqda, misal üçün, millət vəkilinin elmi, yaradıcılıq fəaliyyəti və ya digər fəaliyyəti ilə bağlı məlumat daxil olduqda, MSK göstərilən faktları 2 aydan gec olmayan müddətə araşdırır, qərar qəbul edir və bununla əlaqədar mütəxəssislərdən ibarət qrup yarada bilər. Bu, Seçki Məcəlləsinin uzun illər mövcud olan müddəasıdır. Ona görə xahiş edirəm ki, Mərkəzi Seçki Komissiyasının statusu ilə bağlı Seçki Məcəlləsinə bir daha nəzər salaq. Bu, heç də texniki bir qurum deyil və məhz Mərkəzi Seçki Komissiyası 89-cu maddənin I hissəsi ilə bağlı məsələlərdə qərar qəbul edir.

23-cü maddə ilə bağlı – Milli Məclisdə millət vəkilinin mandatdan imtina etməsi baş verirsə, onun yazılı təqdim olunması ilə əlaqədar fikir söylənmişdi. Hörmətli həmkarlarım, Milli Məclisdə millət vəkilinin mandatdan imtinası ilə bağlı çıxışı protokollaşdırılır, stenoqramda öz əksini tapır. Onun hüquqi qüvvəsi Daxili Nizamnamədə, Konstitusiyada göstərildiyi kimi, Milli Məclis üzvünün yazılı ərizə ilə Mərkəzi Seçki Komissiyasına müraciət etməsi ilə tamamilə eynidir. Ona görə biz mövcud konstruksiyaya

yenə də toxunmuruq. Çünki bu müddəa uzun illərdir var və zamanında onu yazanlar da, hesab edirəm ki, çox düzgün addım atıblar.

Belə bir müddəa 41-ci maddədə mövcuddur. Bilirsiniz ki, İntizam komissiyasının səlahiyyətləri genişləndirilir və təklif olunmuşdu ki, "deputatlara təlim keçmək" sözləri "Milli Məclisin deputatlarını məlumatlandırmaq" ifadəsi ilə əvəz olunsun. Buna prinsipcə etiraz edilmədi, işçi qrupu bunu nəzərə alır. Səhv etmirəmsə, Fazil müəllim Mustafa təqdim etmişdi. Amma xüsusi vurğulamaq istəyirəm ki, onun adının necə qoyulmasından asılı olmayaraq, istəyirsinizsə, indi razılaşaq, "məlumatlandırma", "tövsiyə" olsun, amma bu, mahiyyət etibarı ilə təlimdir. Bütün dünya ölkələrində parlament formalaşandan sonra müəyyən təlimlər keçilir və hesab edirəm ki, bu, fəaliyyətə yeni başlayan insanlar üçün tamamilə normal qəbul olunmalıdır. Burada məqsəd ancaq yardım etməkdir. Amma bu fikri nəzərə alırıq, prinsipcə mahiyyəti də olduğu kimi qalır, amma işçi qrupu "təlim" sözünü "məlumatlandırma" sözü ilə əvəz etdi.

Hesablama Palatası ilə bağlı 44-cü və 45-ci maddələrə təkliflər olmuşdur. Bunlar nəzərə alınıb. Ümumiyyətlə, qeyd etmək istəyirəm ki, nizamnamə, bildiyiniz kimi, uyğunlaşdırma xarakteri daşıyırdı və biz "Hesablama Palatası haqqında" Qanuna da uyğunlaşdırmışıq. 3 yeni məsələdir. İkinci oxunuşda olmamışdı, onu səsləndirirəm ki, stenoqramda öz əksini tapsın. Artıq "dövlət büdcəsinə nəzarət" sözləri "ali auditorlar" sözləri ilə əvəz olunur. Üzvlərin sayı 7-dən 5-ə endirilir, sədr və müavini çıxmaq şərti ilə, rəqəmlərdə dəyişiklik baş verir. Hesablama Palatasının üzvü üçün tələb olunan o ixtisaslar siyahısına hüquq sahəsi də əlavə olunduğuna görə "hüquq" sözü də

əlavə olunur. Yəni indi üçüncü oxunuşa təqdim elədiyimiz 44-cü və 45-ci maddələrdə düzəlişlər “Hesablama Palatası haqqında” Qanuna uyğunlaşdırma xarakteri daşıyır.

Hörmətli cənab Sədr, həm Sizin, həm də komitə sədrlərinin Milli Məclisdə ikinci oxunuş zamanı səslənmiş fikirləri nəzərə alınaraq 41-ci maddənin birinci hissəsində İntizam komissiyasının üzvlərinin sayı 9 nəfərdən 11 nəfərədək artırıldı. Bilirsiniz ki, müxtəlif variantlar müzakirə olundu. Amma nəticə etibarı ilə ümumi qərarımız 11 nəfər oldu, rəhbərliyin də tövsiyələri nəzərə alındı. Amma bir daha vurğulayıram, qərarların qəbulu ilə bağlı konstruksiyada dəyişiklik yoxdur, çünki mahiyyət dəyişməyib, sadəcə, say dəyişib.

Mandatdan məhrumetmə halında yalnız İntizam komissiyasının üzvünün xüsusi rəy ilə çıxış etməsinin layihədə istisna olması ilə əlaqədar Azay müəllimin təklifi var idi. O da 41-ci maddədə öz əksini tapmışdır.

Hörmətli millət vəkilləri, birmənalı deyə bilərəm ki, Milli Məclisin Daxili Nizamnaməsinə təklif etdiyimiz düzəlişlər, dəyişikliklər əsas etibarı ilə uyğunlaşdırma xarakteri daşıyır. Mən həm müzakirə zamanı demişdim, həm də mətbuatda səslənmiş bir fikrə də münasibət bildirmək istəyirəm ki, bu düzəlişlər, əksinə, Milli Məclis deputatının yüksək nüfuzunu daha da ucaltmışdır və biz öz fəaliyyətimizdə şəffaflıqla, nizam-intizamla dövlət hakimiyyəti orqanı kimi, qanunvericilik orqanı kimi, hakimiyyətin qolu kimi nümunə göstəririk. Eyni zamanda, qeyd etmək istəyirəm ki, hakimiyyətin digər qollarının da, məsələn, icra hakimiyyətinin dövlət qulluğu haqqında qanunu və etik davranış qaydaları, məhkəmə hakimiyyətinin – hakimlərin etik davranış qaydası mövcuddur. Əslində, bircə parlamentin etik davranış qaydaları yox idi və bunu da qə-

bul etməklə, hesab edirəm, boşluğu aradan qaldırmış oluruq.

Hörmətli həmkarlar, “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Qanunun 1-ci maddəsinə belə bir hissənin əlavə edilməsi təklif olunur: “Milli Məclisin, komitə və komissiyaların rəhbərləri və onların müavinləri, deputatlar hər ay vəzifə maaşlarının 1 misli məbləğində əlavə haqq alırlar”.

3-cü məsələ “Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” Qanunla bağlıdır. Burada söhbət hədiyyələrin alınması və maraqların toqquşmasının həlli məsələsi idi. Məclisi məlumatlandırmaq istəyirəm ki, ikinci oxunuşdan sonra Korrupsiyaya qarşı mübarizə komissiyasının katibliyinin və Avropa Şurasının QREQO təşkilatının ekspertləri, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, İntizam komissiyasının üzvləri, Aparatımızın işçiləri birlikdə qapalı bir müzakirə keçirdilər. Çünki bu təkliflər beynəlxalq tövsiyələr idi. Müzakirələr zamanı millət vəkillərinin də çıxışları oldu və beynəlxalq ekspertlər ilə bir məsələ ilə bağlı razılıq əldə olundu.

11.2-ci maddədə qeyd olunurdu ki, deputat Milli Məclisin İntizam komissiyasının rəyinə müvafiq olaraq onun marağının yarandığı məsələ ilə bağlı çıxış edə, ya da səsvermədə iştirak edə bilməz. Məlumat üçün qeyd etməliyəm ki, bir çox Avropa ölkələrində məhz belədir. Yəni İntizam komissiyası tövsiyə verirsə, səsvermədən, yaxud da çıxışdan imtina etmək lazımdır. Millət vəkillərimizin, komitə üzvlərimizin fikri belə idi ki, biz bu məsələdə millət vəkilinin səlahiyyətlərinə, davranışına bu qədər dar çərçivə müəyyən etməli deyilik. Biz də elə müzakirə zamanı ekspertlə şifahi olaraq razılaşdıq. Bu barədə QREQO təşkilatına da məlumat veriləcək. Yeni bir

formul seçdik – "çıxış etməkdən və ya səsvermədə iştirak etməkdən çəkinməlidir". Yəni bu qərar millət vəkilinin özünün qəbul etdiyi qərardır. Amma maraqlar toqquşması yaranarsa, onda, təbii ki, millət vəkili məsuliyyət daşıyır. Millət vəkillərinin bu davranışda sərbəst olma təklifini nəzərə almış olduq.

Hörmətli həmkarlar, xatırlatmaq istəyirəm ki, bu, üçüncü oxunuşdur və biz məsələyə səsvermə yolu ilə münasibət bildirməliyik. Çıxışlardan çəkinməliyik.

**Sədrlik edən.** Bu məsələ çox uzun çəkdi, axırda üçüncü oxunuşa gəlib çatdı. Xahiş edirəm, 14-cü məsələyə – Milli Məclisin Daxili Nizamnaməsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.47 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 15-ci məsələsinə – Milli Məclisin deputatının statusu haqqında qanun layihəsinə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.47 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |

| | |
|---|---|
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Nəhayət, 16-cı məsələyə – Milli Məclisin deputatının etik davranış qaydaları haqqında qanun layihəsinə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.48 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli millət vəkilləri, 17-ci məsələdən 23-cü məsələyə qədər büdcə zərfinə daxil olan layihələrin üçüncü oxunuşudur. Ona görə 24-cü məsələ ilə davam edirik. Bizim gündəlikdə iki günə 58 məsələmiz var, yəni 5 məsələ də əlavə olunacaq.

Azərbaycan Respublikası Hökuməti ilə Monqolustan Hökuməti arasında diplomatik pasportlara malik olan şəxslərin viza tələblərindən azad edilməsi haqqında buyursun Səməd Seyidov.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, Oqtay müəllim. Hörmətli millət vəkilləri, parlamentimizdə bu cür qanun layihələri tez-tez müzakirə olunur, qəbul olunur. Bu da Azərbaycan pasportunun, Azərbaycan vətəndaşının və Azərbaycanın beynəlxalq

əlaqələrinin inkişafı deməkdir. Bu gün Şərqdə inkişaf edən, xüsusi nüfuza malik olan Monqolustan Azərbaycan üçün əhəmiyyət kəsb edən ölkələr sırasındadır. Ona görə səfərlərimizi təşkil etmək, əlaqələrimizi möhkəmləndirmək və bu istiqamətdə işləmək üçün xidməti və rəsmi pasportlara malik olan şəxslərin ölkəyə diplomatik pasportlarla daxil olması ilə yanaşı, vizalardan azad edilməsi çox vacib və əhəmiyyətli bir məsələdir. Komitəmiz bu məsələni qəbul etməyi tövsiyə edir və həmkarlarımdan buna müsbət fikir səsləndirmələrini xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.50 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

25-ci məsələ eyni qəbildəndir, Azərbaycan Respublikası Hökuməti ilə Çili Respublikası Hökuməti arasında diplomatik və xidməti/rəsmi pasportlara malik olan şəxslərin viza tələblərindən azad edilməsi haqqındadır. Səməd müəllim, buyurun.

**S.Seyidov.** Çox sağ olun, Oqtay müəllim. Bu qanun layihəsi də həmin silsilədəndir. Ancaq coğrafiyaya baxın, Çili tamamilə başqa bir qitədir, başqa istiqamətdir. Bu qanun layihəsi də Azərbaycanın beynəlxalq nüfuzunun bütün dünyada, bütün qitələrdə, ölkələrdə qəbul olunmasına

və əlaqələrimizin genişlənməsinə dəlalət edir. Ona görə, təbii, Çili Respublikasına diplomatik və xidməti pasportlarla gedən şəxslərin vizadan azad olunması əhəmiyyətlidir. Nəzərə alsaq ki, bu gün Latın Amerikası ilə Azərbaycan münasibətləri inkişaf xəttini yaşayır, Çili bunların arasında xüsusi əhəmiyyət kəsb edən ölkədir. Komitə belə bir qanun layihəsinin qəbul olunmasının tam lehinədir və sizdən də bunun qəbul olunmasını rica edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.52 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

Gündəliyin 26-cı məsələsi “Tranzit və Nəqliyyat üzrə Əməkdaşlıq Sazişi”nin təsdiq edilməsi haqqında qanun layihəsidir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, adı çəkilən saziş 2017-ci ilin noyabr ayında Aşqabad şəhərində imzalanmışdır. Sazişi Əfqanıstan İslam Respublikası, Azərbaycan, Gürcüstan, Türkiyə və Türkmənistan respublikaları imzalamışlar. Qanun layihəsi bu ölkələr arasında nəqliyyat əlaqələrinin inkişafına xidmət edəcəkdir. Artıq bəllidir ki, 4 ölkə – Azərbaycan, Gürcüstan, Türkiyə və Türkmənistan bu istiqamətdə xeyli işlər

görür. Bu qanun layihəsi də Əfqanıstan İslam Respublikasının nəqliyyat əlaqələrinin inkişafına öz müsbət təsirini göstərəcəkdir. Ona görə millət vəkillərindən bu qanun layihəsinə səs verməlorini xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.53 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 27-ci məsələsi "Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üçün Beynəlxalq Beyin Mərkəzinin yaradılması üzrə" Çoxtərəfli Sazişə qoşulmaq haqqındadır. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, adı çəkilən Saziş 2010-cu ildə Nyu-York şəhərində imzalanmışdır. Azərbaycan da bu sazişə qoşulub. Söhbət ondan gedir ki, dünyanın bir çox ölkələrində beyin mərkəzləri fəaliyyət göstərir və bu beyin mərkəzləri də müvafiq tədqiqat və eyni zamanda, təbliğat işləri ilə məşğul olurlar. Bu saziş isə dənizə, yəni okeana çıxışı olmayan ölkələri əhatə edir və həmin sazişə qoşulmaq da Azərbaycanın bu sazişə qoşulan ölkələrlə əlaqələrinin inkişafına xidmət edəcəkdir. Millət vəkillərindən bu qanun layihəsinə də səs verməlorini xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.55 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

Növbəti 28-ci və 29-cu məsələlər bir zərfdə daxil olub. 28-ci məsələ "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədədir. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli həmkarlar, bu layihə cənab Prezidentin cəza siyasətinin humanistləşdirilməsi haqqında sərəncamı və 2017-ci ildə Cinayət-Prosessual Məcəlləsində etdiyimiz dəyişikliklərlə bağlıdır, uyğunlaşdırma xarakteri daşıyır. Amma müzakirə zamanı "ölmüş zərərçəkmiş şəxs" ifadəsinə irad bildirilmişdi. Bildirmək istəyirəm ki, uzun illərdir, Azərbaycanın Cinayət-Prosessual Məcəlləsində bu ifadə işlənir. Yəni bu, sadəcə, uyğunlaşdırma xarakteri daşıyır və o ifadənin işlənməsi ilə bağlı yenidən müzakirələrin açılmasını yerində görmürük. Üçüncü oxunuşda səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, üçüncü oxunuşda qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.57 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

29-cu məsələ də üçüncü oxunuşdur. “Hərbi xidmət-keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə buyursun Ziyafət müəllim.

**Z.Əsgərov,** *Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, təqdim olunmuş qanun layihəsi üçüncü oxunuşda müzakirənizə çıxarılır. Əgər yadınızdadırsa, biz bu qəbildən olan qanun layihələrinin bir neçəsini artıq üçüncü oxunuşda, yaxud birinci oxunuşda qəbul etdik. Söhbət nədən gedir? Söhbət ondan gedir ki, 2017-ci il fevral ayının 10-da cənab Prezidentin penitensiar sistemin fəaliyyətinin təkmilləşdirilməsi və cəza siyasətinin humanistləşdirilməsi ilə əlaqədar böyük bir sərəncamı olmuşdu. Həmin sərəncama müvafiq olaraq cənab Prezident sonradan Cinayət Məcəlləsinə xeyli dəyişikliklər edilməsi ilə bağlı qanun layihəsi ilə Milli Məclisə müraciət etmişdi və eyni zamanda, Cinayət-Prosessual Məcəlləsinə 2017-ci il dekabr ayının 1-də dəyişikliklər edilmişdir. Bax, bu qanun layihələrinə müvafiq olaraq həmin bu qanun layihəsində dəyişikliklər edilir. Bu dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır və ona görə də səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.58 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, kim istəyirsə, mənim yerimə gəlsin, iclası keçirsin.

Mən ayın 30-da olan iclası bir az yüngülləşdirmək istəyirəm, ona görə məsələləri qəbul edirik. İndi 4 məsələ də bir zərfdə gəlib, bunları da qəbul edək, qalan məsələləri noyabrın 30-da olan iclasa saxlayarıq. Gündəliyin 30-cu məsələsi "Dövlət rüsumu haqqında" Qanunda dəyişikliklər edilməsi barədədir. Buyursun Ziyad Səmədzadə.

**Z.Səmədzadə.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi işçilərinin sosial müdafiəsini gücləndirmək və maddi təminatını yaxşılaşdırmaq məqsədi ilə hazırlanmışdır və Qida Təhlükəsizliyi Agentliyi tərəfindən baytarlıq, fitosanitar və qida təhlükəsizliyi sahəsində göstərilən xidmətlərə görə ödənilən dövlət rüsumlarının 50 faizinin Agentliyin xəzinə hesabına köçürülməsini, qalan hissəsinin isə dövlət büdcəsinə ödənilməsini nəzərdə tutur. Bu vəsaitin bölgüsü və istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcəkdir. Ona görə millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Əgər başqa təklif yoxdursa, xahiş edirəm, qanun layihəsinə ikinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.01 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

Səs vermədi 0
İştirak edir 91
Nəticə: Qəbul edildi

Çox sağ olun.

31-ci məsələ "Baytarlıq haqqında" Qanunda dəyişiklik edilməsi barədədir, o da üçüncü oxunuşdur. Buyursun Eldar İbrahimov.

**E.İbrahimov,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli cənab Sədr, hörmətli deputat həmkarlarım, "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında", "Yeyinti məhsulları haqqında" qanunlarda dəyişikliklərin hamısı eyni mənanı kəsb edir. Ona görə cənab Sədr, icazənizlə, mən üçünü də birlikdə təqdim edərdim, sonra ayrı-ayrı səsə qoyardıq. Bildirirəm ki, "Baytarlıq haqqında" və "Fitosanitar nəzarəti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri Aqrar siyasət komitəsinin iclasında üçüncü oxunuşda və Milli Məclisin plenar iclasında ikinci oxunuşda qəbul edildikdən sonra onlara hər hansı bir əlavənin edilməsi barədə təklif daxil olmamışdır.

"Yeyinti məhsulları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin Milli Məclisin plenar iclasında ikinci oxunuşda müzakirəsi zamanı hörmətli həmkarım Aytən xanım Mustafazadə Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin hüquqi əsaslarını təmin edən qanunvericilik bazasının yaradılmasını və "Yeyinti məhsulları haqqında" Qanunda bir sıra dəyişikliklərin edilməsini təklif etdi. Bildirmək istəyirəm ki, Agentlik yaradıldıqdan sonra onun fəaliyyətini təmin etmək üçün qida təhlükəsizliyi sahəsində müxtəlif orqanlarda olan səlahiy-

yətlərin Agentliyə ötürülməsi məqsədi ilə qüvvədə olan bır sıra qanunlarda lazımi dəyişikliklər edilmişdir. Eyni zamanda, cənab Prezidentin 2017-ci il fevralın 10-da imzaladığı Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında 1235 nömrəli Fərmanda bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi üçün Nazirlər Kabinetinə beynəlxalq təcrübə nəzərə alınmaqla qida təhlükəsizliyi haqqında qanun layihəsinin hazırlanması barədə tapşırıq verilmişdir. Layihələri üçüncü oxunuşda qəbul etmək olar. Həmkarlarımdan xahiş edirəm, səs versinlər.

**Sədrlik edən.** Çox sağ olun. Xahiş edirəm, gündəliyin 31-ci məsələsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.03 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Gündəliyin 32-ci məsələsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.04 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun və gündəliyin 33-cü məsələsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.05 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Bu günlük iclasımız sona çatdı, növbəti iclas noyabrın 30-da olacaq, sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

*27 noyabr  2019-cu il*

---

**Müslüm Məmmədov.** Mən də büdcə barəsində həmkarlarımın dediklərinə qoşuluram, doğrudan da, peşəkarlıq baxımından mükəmməl hazırlanmış sənəddir. Sevindirici haldır ki, bu il büdcənin ümumi dəyəri bütün dünyada hiss olunan iqtisadi çətinliklərə baxmayaraq, ölkə tarixində ən yüksək həddədir, gəlirlər hissəsində qeyri-neft sektorunun payına düşən hissə xeyli artıb, nəticələrə görə profisit gözlənilir. Buna görə də, əlbəttə ki, mən də büdcə layihəsini dəstəkləyirəm və lehinə səs verəcəyəm.

Bununla yanaşı, hörmətli hökumət üzvlərinin burada iştirak etməsindən istifadə edərək təmsilçisi olduğum Kürdəmir rayonunun seçicilərinin qarşılaşdığı və mənimlə görüşləri zamanı daim qaldırdıqları məsələləri səsləndirmək istəyirəm. Ümid edirəm ki, bu məsələlərin həlli istiqamətində müəyyən addımlar atılar.

Hazırda qeyd olunmalı ən böyük problemlərdən biri Kürdəmir rayonunda kanalizasiya sisteminin tikintisinin yarımçıq qalmasıdır. 2013-cü ildə kanalizasiya sisteminin çəkilişinə başlanılıb, 2015-ci ilə qədər tikinti işləri davam edib, təxminən 30 faiz işlər görüldükdən sonra iş dayandırılıb və bu günə qədər heç bir xəbər yoxdur. Kanalizasiya sisteminin olmaması ucbatından onsuz da çökəkdə yerləşən şəhərdə yağış yağanda həyətyanı evləri su basır, qəzalı vəziyyətə salır.

Digər problem kənd yolları ilə bağlıdır. Kürdəmir rayonunun kəndlərinin böyük əksəriyyətində, – buna ancaq

yolsuzluq demək olar, çünki burada təmir deyil, yenidən yol çəkilməlidir, – bir çox kəndlərin yolları son dəfə sovet dövründə təmir edilib. Bəzi faktları deyim: Qarasaqqallı kəndi mərkəzi yoldan 7 km aralıdadır, 348 evdən ibarətdir, 2 min nəfər əhalisi var. Mən özüm bu 7 km yolu xüsusi olaraq saata baxaraq 42 dəqiqəyə getmişəm. Bundan əlavə, Şilyan-Qarasu kəndlərinə gedən yolun uzunluğu 10 km-dir, 1700 ev, 10800 nəfər əhalisi var.

Yenikənd–Dəyirmanlı–Mürtülü kəndlərinə gedən mərkəzi yolun uzunluğu 6 km-dir, 1200 ev, 8700 nəfər əhalisi var. Cəyili kəndinin mərkəzi yoldan kəndə gedən yolunun uzunluğu 4 km-dir, 441 ev, 2881 nəfər əhalisi var. Bunları topladıqda məlum olur ki, rayon əhalisinin 20-25 faizi tam yolsuzluq şəraitində yaşayır, digər, ən az 50 faizi isə bərbad yoldan əziyyət çəkir.

Digər bir problem məktəbəqədər təhsil müəssisələrinin həddindən artıq az olmasıdır. 110 min əhalisi olan rayonda cəmi 11 uşaq bağçası fəaliyyət göstərir, bu da hər 10 min nəfərə 1 bağça eləyir. Bu bağçaların 9-u Kürdəmir şəhərində, 2-si kənddədir.

Bu problemlər uzun müddətdir ki, həllini gözləyir, müəyyən vədlər verilib, müddətlər göstərilib, amma təəssüflər olsun ki, indiyə qədər tədbir görülmür, hər dəfə də büdcədən bu məqsəd üçün vəsaitin ayrılmadığı göstərilir. Bu problemlərin tam olmasa da, qismən həlli üçün bu ilin büdcəsindən vəsaitin ayrılması rayon əhalisi üçün çox yaxşı xəbər olardı. Diqqətinizə görə təşəkkür edirəm.

**Cavid Osmanov.** Ölkəmizin iqtisadi siyasətində və bütövlükdə inkişaf kursunda əhəmiyyət kəsb edən məsələlərdən biri də dövlət büdcəsində qarşıya qoyulan vəzifələrdir. Hər il tərtib olunan dövlət büdcəsi ölkəmizin milli maraqlarına və iqtisadi təhlükəsizliyinə cavab verir. Azərbaycan

dövlətinin büdcəsi hər zaman iqtisadiyyatdakı pozitiv meyilləri nəzərə alır. Eyni zamanda, büdcənin tərtibi zamanı dünya iqtisadiyyatında və beynəlxalq maliyyə bazarlarında baş verən meyillər də diqqətlə təhlil edilir.

Təsadüfi deyil ki, 2019-cu ilin də dövlət büdcəsinin layihəsi Azərbaycanın real inkişaf səviyyəsi, dünyada gedən siyasi və iqtisadi proseslərin təsiri ilə baş verə biləcək mənfi təzahürlər nəzərə alınmaqla hazırlanıb. Büdcə sənədlərindən göründüyü kimi, 2019-cu ilin büdcəsi qarşıdakı dövrdə də Azərbaycan iqtisadiyyatının davamlı inkişafına, icra olunan dövlət proqramlarının reallaşdırılmasına zəmin yaradır.

Ümumən, büdcə zərfindəki bütün sənədlər yüksək peşəkarlıqla hazırlanıb və büdcə sisteminə dair qanunvericiliyin tələblərinə cavab verir. Hesablama Palatasının rəyi də dolğunluğu ilə diqqəti cəlb edir. Bütövlükdə büdcənin əsas mahiyyəti Azərbaycan iqtisadiyyatında son 15 ildə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilmiş müsbət meyillərin qorunub saxlanılmasından, iqtisadi və sosial inkişaf göstəricilərinin daha da yaxşılaşdırılmasından, ölkənin iqtisadi qüdrətinin və müdafiə qabiliyyətinin artırılmasından ibarətdir. Ona görə dövlət büdcəsinin əsas parametrlərinin səviyyəsi müəyyən olunmuş inkişaf strategiyasının gələn il uğurla reallaşdırılması üçün zəmin yaradacaqdır.

Müzakirələrin dövlət büdcəsi ilə əlaqədar olduğunu və iclasda hökumət nümayəndələrinin iştirakını nəzərə alaraq təmsil etdiyim Ağdaş rayonu ilə bağlı bir məsələni də diqqətinizə çatdırmaq istərdim. Azərbaycan hökuməti və Asiya İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən "Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı" çərçivəsində Ağdaş rayonunda içməli su təchizatı və kanalizasiya

sistemlərinin yenidən qurulması işləri yekunlaşmaq üzrədir. Rayonun içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla 50 min nəfərədək şəhər əhalisinin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb.

Bu layihə başa çatdıqdan sonra küçələrin bir qismi asfaltlanmamış qalır ki, bu da Ağdaşın son illər daha gözəl görkəm alan ümumi mənzərəsi ilə qətiyyən uzlaşmır.

Hökumətdən 2019-cu ilin büdcə xərclərində bu məsələnin də nəzərə alınmasını və yolların asfaltlanması üçün maliyyə vəsaitinin ayrılmasını xahiş edərdim. Diqqətinizə görə minnətdaram. Büdcə layihəsinə səs verəcəyəm.